*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 19 fevral 2020-ci il № 13 (2431) Qiyməti 30 qəpik

# Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr keçirilib

*Fevralın 15-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın iştirakı ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr keçirilib.*




AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, tədbirdə birinci xanım Mehriban Əliyeva və Leyla Əliyeva da iştirak ediblər.

**Moderator:** Sessiyaya, Dağlıq Qarabağla bağlı müzakirələrə xoş gəlmisiniz. Mənim adım Selest Volenderdir. Bu paneldə moderator olmaq şərəfi mənə nəsib olub. Auditoriyaya da mənə vəzifələrimlə bağlı kömək etdiyi üçün təşəkkür edirəm. Mən hörmətli qonaqlarımızı Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi üçün hər iki tərəfin gördüyü çağırışlar və imkanlarla bağlı öz ilkin fikirlərini söyləmək üçün dəvət etmək istərdim. Daha sonra suallar və növbəti müzakirələr üçün vaxtımız olacaq. Bugünkü qonaqlarımız Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyandır. Hər iki lider Münxen Təhlükəsizlik Konfransının hər zaman diqqətdə saxladığı və irəliləməsi üçün çalışdığı bir mövzu, beynəlxalq sistemdəki mübahisələrin sülh yolu ilə həllinə dair məsələlərdən danışacaqlar. Mən sədr İşingerə bu məsələni gündəmdə və Münxen Təhlükəsizlik Konfransının diqqətində qalmasını təmin etdiyi üçün minnətdarlığımı bildirirəm. Bununla mən Prezident İlham Əliyevə müraciət edərək onu çağırışlar və imkanlarla bağlı fikirlərini bölüşməsini dəvət edirəm.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. İlk növbədə, cənab İşingerə bu tədbiri təşkil etdiyinə görə minnətdarlığımı bildirmək istərdim. Mən elə indicə cənab İşingerə dedim ki, bir neçə il əvvəl Davosda Ermənistan və Azərbaycan rəhbərliyi tərəfindən mesajlar ötürülməsi üçün imkan var idi. Cənab Paşinyanın sələfi də iştirak etməli idi, lakin son anda o, iştirakını təxirə saldı. Beləliklə, mən şadam ki, nəhayət, həmin an gəldi və biz mesajları çatdıra biləcəyik. Düşünürəm ki, bu gün yetərli suallara cavab verə biləcəyik, ilk növbədə, münaqişənin həlli ilə bağlı. Münaqişənin necə həll edilməsi haqqında danışmaq üçün hər şeydən öncə biz geriyə qayıtmalı və məsələnin tarixinə baxmalıyıq. Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir. Bu, tarixi həqiqətdir və beynəlxalq hüququn normalarına əsaslanır. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır. Dağlıq Qarabağ bizim ölkənin ayrılmaz tərkib hissəsidir. Tarixi nöqteyi-nəzərdən, 1805-ci ildə Qarabağ xanı İbrahim xan Rusiya imperiyasının generalı Sisianovla saziş imzalayır. Bu sazişə əsasən, Azərbaycanın Qarabağ xanlığı müstəqil ölkə kimi Rusiya imperiyasının tabeçiliyinə keçir. Kürəkçay adlandırılan həmin sazişdə, - sazişin mətni internetdədir, - Qarabağın erməni əhalisi barədə heç nə deyilmir. 1813-cü və 1828-ci illərdə imzalanmış digər müqavilələr - Gülüstan və Türkmənçay müqavilələrinə əsasən Azərbaycanın qalan hissələri Rusiya imperiyasının tərkibinə keçir. Dağıstan, Gürcüstan və Ermənistan da həmçinin. Beləliklə, bu, məsələnin tarixi tərəfidir. Daha sonra Rusiya imperiyasının süquta uğradığı, Gürcüstan və Azərbaycan Demokratik respublikaları yaradıldığı zamanlarda Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci ildə verdiyi ilk fərmanlardan biri Yerevanın Azərbaycandan Ermənistana verilməsi və onun Ermənistanın paytaxtı elan edilməsi ilə bağlı idi. Bu da, həmçinin tarixi faktdır. Əgər siz kiməsə nəsə verirsinizsə, bu, o deməkdir ki, həmin o nə isə sizə məxsus olub. 1921-ci ildə Bolşevik partiyasının Qafqaz Bürosu Dağlıq Qarabağın Azərbaycan tərkibində saxlanılması barədə qərar qəbul etdi. Saxlanılması barədə qərar, bəzi erməni tarixçilərinin yazdığı kimi verilməsi barədə yox. Bu da, həmçinin tarixi faktdır. Digər tarixi fakt ondan ibarətdir ki, 1923-cü ildə Azərbaycan Sovet Sosialist Respublikası Azərbaycanın tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması barədə fərman qəbul etdi. Beləliklə, bu, tarixdir. Sonralar, 1980-ci illərin sonunda Ermənistan Azərbaycana qarşı təcavüzə başladı, 300 min azərbaycanlı Ermənistan ərazisindən deportasiya olundu. Sonra Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində 1990-cı illərin əvvəlində bizim ərazilərimizin təxminən 20 faizi işğal altına düşdü və 1 milyon azərbaycanlı qaçqın və məcburi köçkünə çevrildi. Xalqımız etnik təmizləməyə məruz qalıb. 1992-ci ildə Ermənistanın əvvəlki rejimi müharibə cinayəti - Xocalı soyqırımını törətdi. Nəticədə aralarında 106 qadın, 63 uşaq olmaqla, 613 günahsız mülki şəxs vəhşicəsinə öldürüldü. Xocalı soyqırımını 10-dan artıq ölkə tanıyır.

Beynəlxalq hüquq məsələsinə gəlincə, yenə deməliyəm ki, Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir. BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Bu qətnamələrin tələbləri hələ də yerinə yetirilməyib. Ona görə də sülh danışıqları nəticəsində əldə ediləcək istənilən həll yolu Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün saxlanılmasını təmin etməlidir. Mən planlaşdırılan vaxtdan daha çox istifadə etməmək üçün hələlik çıxışımı tamamlayıram. Təşəkkür edirəm.

**Moderator:** Təşəkkür edirəm, cənab Prezident. Xülasəyə görə təşəkkür edirəm. Cənab baş nazir, düşünürəm ki, biz bu məsələ ilə bağlı sizin fikirlərinizi eşitməyə hazırıq.

**Nikol Paşinyan:** Təşəkkür edirəm. Bilirsiniz, mən Prezident İlham Əliyevdən tarixin çox dərinliklərinə getməməyini xahiş edəcəyəm. Çünki erməni kralı Böyük Tiqran romalı hərbi lider Pompeylə danışıqlar aparan zaman bütün Cənubi Qafqazda və bütün dünyada Azərbaycan adlı ölkə olmayıb. Düşünürəm ki, çox uzağa getmək o qədər də düzgün deyil. Çünki mən daha uzağa gedə bilərdim və misal üçün, eramızdan əvvəlki 400-cü ildən başlaya bilərdim. Lakin mən bunu etməyəcəyəm. Çünki bunun düzgün yol olduğunu düşünmürəm. Dağlıq Qarabağın ölkə kimi hesab olunmasına gəlincə, deməliyəm ki, mən Prezident Əliyevlə razı deyiləm. Çünki Qafqaz Bürosu Dağlıq Qarabağın Azərbaycanın ... yox üzr istəyirəm, Ermənistanın tərkib hissəsi olmasına qərar verdi. Bu, tamamilə qanuni qərar idi və bundan sonra İosif Stalinin şəxsi təşəbbüsü əsasında bu qərar Moskvada dəyişdirildi. Bu, bir növ Stalin, Lenin və Atatürkün gizli sövdələşməsi idi. Qarabağ heç vaxt müstəqil Azərbaycan dövlətinin tərkib hissəsi olmayıb. Qarabağ Sovet İttifaqının formalaşması prosesi zamanı Azərbaycana verilib.

**(Ardı 4-cü səhifədə)**

# Müdafiə naziri: "Qoşunlarda təlim və məşqlər real döyüş şəraitinə uyğun, gecə və gündüz vaxtı keçirilməlidir"

*Fevralın 15-də Mərkəzi Komanda Məntəqəsində Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi altında nazir müavinləri, qoşun növləri komandanları, baş idarə, idarə və xidmət rəisləri, birlik komandirləri, eləcə də videobağlantı vasitəsilə cəbhə bölgəsində yerləşən birləşmə komandirləri və digər məsul zabitlərin də cəlb olunması ilə xidməti müşavirə keçirilib.*





Müşavirədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyanın Hərbi məsələlər şöbəsinin müdiri general-polkovnik Məhərrəm Əliyev iştirak edib.

Ölkəmizin dinamik sosial-iqtisadi inkişafının ordu quruculuğu sahəsinə göstərdiyi müsbət təsirindən danışan general-polkovnik M.Əliyev Ali Baş Komandanın Silahlı Qüvvələr qarşısında qoyduğu mühüm vəzifələrin uğurla icrası, aparılan genişmiqyaslı hərbi islahatlar nəticəsində ölkənin müdafiə qüdrətinin, Azərbaycan Ordusunun isə beynəlxalq aləmdə nüfuzunun artması, hərbi qulluqçular və onların ailə üzvlərinin sosial şəraitinin yaxşılaşdırılmasını xüsusi qeyd edərək dövlət səviyyəsində bu istiqamətdə işlərin cari ildə də davam etdiriləcəyini diqqətə çatdırıb.

Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu müvafiq tapşırıqları komandir-rəis heyətinə çatdıraraq yeni tədris dövründə qarşıda duran məsələlərin tam həcmdə yerinə yetirilməsi ilə bağlı müvafiq göstərişlər verib.

Cəbhədəki əməliyyat şəraitini təhlil edən general-polkovnik Zakir Həsənov müdafiənin ön xəttində vizual və xüsusi texniki vasitələrdən istifadə etməklə düşmənin fəaliyyətinin daim müşahidə edilməsi, onun ehtimal olunan təxribatlarının qarşısının dərhal alınması, bölmələrimizin şəxsi heyətinin sayıqlığının artırılması və təhlükəsizliyinin təmin edilməsi, həmçinin çətin relyefli ərazilərdə, xüsusilə yüksək dağlıq bölgələrdə döyüş növbətçiliyi aparan bölmələrin maddi-texniki ehtiyatlarla fasiləsiz təmin olunması ilə bağlı tapşırıqlar verib.

Müdafiə naziri qoşunların döyüş qabiliyyətinin və şəxsi heyətin döyüş hazırlığı səviyyəsinin daha da yüksəldilməsi məqsədilə müxtəlif təlim və praktiki məşqlərin real döyüş şəraitinə uyğun, gecə və gündüz vaxtı, intensiv radioelektron mübarizə şəraitində keçirilməsi ilə əlaqədar tövsiyələri verib.

Döyüş hazırlığı və hərbi təhsil məsələlərinə toxunan Müdafiə naziri hərbi təhsil sistemi və peşəkar hərbi kadrların hazırlanmasında qabaqcıl təcrübə və yeniliklərin tətbiqi, döyüş təminatını müəyyən edən vəzifələrin daha təcrübəli hərbi qulluqçularla komplektləşdirilməsi, döyüş və səfərbərlik hazırlığının yüksəldilməsinin vacibliyini xüsusi qeyd edib.

Azərbaycan Ordusunun şəxsi heyətinin mənəvi-psixoloji vəziyyətini yüksək qiymətləndirən Müdafiə naziri ideoloji işin gücləndirilməsi, hüquq qaydaları və hərbi intizamın, hərbi qulluqçular və onların ailə üzvlərinin sosial müdafiəsinin, şəxsi heyətin tibbi nəzarətinin möhkəmləndirilməsi, həmçinin müvafiq dövlət qurumları ilə qarşılıqlı əlaqələrin genişləndirilməsinin zəruriliyini də diqqətə çatdırıb.

Müşavirənin sonunda Müdafiə naziri rəhbər heyətə xidməti və döyüş fəaliyyəti ilə bağlı bir sıra tapşırıqlar verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə naziri hərbi təyinatlı obyektlərin açılışında iştirak edib

*2020-ci ilin fəaliyyət planına uyğun olaraq hərbi hissələrdə tikinti-quruculuq işləri davam edir. Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov müasir tələblərə cavab verən növbəti hərbi obyektin açılışında iştirak edib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, məruzə olunub ki, hərbi hissənin avtomobil parkında iriqabaritli hərbi maşınlar üçün saxlanclar, yanacaqdoldurma məntəqəsi və açıq test meydançası yaradılıb.

Müdafiə naziri parkın ərazisində avtomobillərin saxlanc boksları, yeni avadanlıqla təchiz edilmiş texniki nəzarət, qulluq, təmir məntəqələrində şəraitlə tanış olduqdan sonra, müvafiq tapşırıqlarını verib.

# Prezident İlham Əliyev Nikol Paşinyanı mat vəziyyətinə saldı

*Fevralın 15-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev ilə Ermənistanın baş naziri Nikol Paşinyan arasında baş tutan debatlar diplomatiya tariximizə növbəti uğurlu səhifələrdən biri kimi yazıldı.*

Bütün dünyaya birbaşa yayımlanan debatlarda Prezident İlham Əliyev işğalçı ölkənin baş naziri Nikol Paşinyana bir çox istiqamətlər üzrə master-klas keçərək onu mat vəziyyətinə saldı. Dövlətimizin başçısının həm yüksək natiqlik qabiliyyəti, həm ingilis dilində səlis danışması, həm də ayrı-ayrı məsələlərə məntiqi və faktlar əsasında yanaşması Azərbaycan diplomatiyasının peşəkarlığının bariz nümunəsidir. Nikol Paşinyan isə tarix bilgilərinin və ingilis dili səviyyəsinin nə qədər bərbad olduğunu hər cümləsində göstərməklə nəinki siyasi səhnədə, ümumiyyətlə, heç bir sahədə Prezident İlham Əliyevə rəqib ola bilməyəcəyini bir daha ortaya qoymuş oldu. Dövlətimizin başçısı işğalçı ölkənin baş nazirinin keçmiş Şaumyan rayonunun (indiki Goranboy) guya Dağlıq Qarabağa aid olduğu, Xocalı soyqırımı və Xankəndi ilə bağlı söylədiyi yalan və tarixi təhriflərlə dolu fikirlərinə tutarlı arqumentlərlə cavab verərək bütün dünyanın gözü qarşısında Nikol Paşinyana tarix dərsi keçdi.

**Ehtiram AŞIRLI**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**18 fevral 2020-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Ayqeovit kəndində yerləşən mövqelərdən Qazax rayonunun Bala Cəfərli kəndində, Berd rayonunun Ayqedzor kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Baş Qərvənd, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

*Döyüş hazırlığı*

# "Hazırlığımızı dərslərlə də artırırıq"

Xalqımızın ümummilli lideri Heydər Əliyevin layiqli davamçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasətin nəticəsində bu gün Azərbaycan ən güclü və modern orduya sahibdir. Ordumuzun döyüş, mənəvi-psixoloji və maddi-texniki təminat məsələlərinin daha da artırılması ilə bağlı verilən bütün əmr və tapşırıqlar Müdafiə Nazirliyi rəhbərliyi tərəfindən daim diqqət mərkəzində saxlanılır və yüksək səviyyədə icra olunur. Görülən işlərin nəticəsidir ki, əsgərlərimizin döyüş hazırlığı səviyyəsi durmadan yüksəlir, şəxsi heyət müasir silah və texnika ilə təchiz edilir, yeni təlim mərkəzləri inşa edilir, döyüş şəraitinə uyğun təlimlər həyata keçirilir. Vəzifəsindən asılı olmayaraq, bütün hərbi qulluqçular verilən tapşırıqları yüksək səviyyədə yerinə yetirməyə qadirdir. Günü-gündən gücünü, qüdrətini və döyüş qabiliyyətini artıran ordumuz torpaqlarımızı erməni işğalçılarından azad etmək iqtidarındadır.

Ön xətt bölmələrinin birində şəxsi heyətin döyüş hazırlığı məşqlərini izlədik. Top komandiri heyət üzvlərinə müvafiq tapşırıqlar verirdi. Heyət nəfərləri verilən tapşırıqları bacarıqla yerinə yetirirdi. Top komandiri şəxsi heyətin əməli bacarıqlarını yoxlamaq üçün onlara artilleriya qurğusunu "Döyüş" və "Səfər" vəziyyətinə gətirilməsini əmr etdi. Şəxsi heyət qarşıya qoyulan tapşırığı yüksək səviyyədə yerinə yetirdi.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Hikmət Qaraxanov isə əsgərlərə nəzarət edir, mövzu ilə bağlı fikirlərini bildirirdi. Dərs prosesi bitdikdən sonra Hikmətlə söhbətləşdik.



"Dövlətimizin ordu quruculuğuna diqqət və qayğısını hər gün hiss edirik", - deyə kiçik çavuş söhbətə başladı. - Yuxarı komandanlığın təsdiq etdiyi döyüş hazırlığı planına uyğun olaraq bütün tədbirlər kompleks şəkildə yerinə yetirilir. Günün nizam qaydasına uyğun olaraq döyüş qabiliyyətlərini artırmaq məqsədilə şəxsi heyətlə gecə dərsləri də keçirilir. Əsgərlərimiz toplardan təyinatı üzrə istifadə etməyi bacarırlar. Məlumdur ki, biz təkcə nəzəri dərslərlə kifayətlənmirik. Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, artilleriya bölmələrinin əməli təlimləri də yüksək səviyyədə keçirilir. Bunlar bir daha sübut edir ki, ordumuz hər an Ali Baş Komandanın əmri ilə düşmənin istənilən hədəfini dəqiq atəşlə məhv etməyə və işğal altında olan torpaqlarımızı azad etməyə qadirdir."

Kiçik çavuş H.Qaraxanov ön xətdə bacarıqlı əsgərlərlə və peşəkar zabitlərlə birgə xidmət etdiyindən qürurlandığını da bildirdi. "Burada kollektivimiz bir-biri ilə çox mehribandır. Şəxsi heyət dərsə yüksək maraq göstərir. Bütün heyət istənilən an "Həyəcan" siqnalı ilə mövqeyini tutmağa, verilən tapşırığa uyğun vəzifəsini icra edərək, topu qısa zamanda "Döyüş" vəziyyətinə gətirməyə, nəzərdə tutulan düşmən hədəflərini məhv etməyə tam hazırdır".

- Azərbaycan Ordusunun əsgəriyəm, vəzifəm Vətəni göz bəbəyi kimi qorumaqdır, - deyə əsgər Aslan Məmmədzadə sözə başladı. - Xidmət müddətim ərzində xeyli təcrübə qazanmışam, hərbi biliklər öyrənmişəm. Komandirlərimizin peşəkarlığı sayəsində keçirilən təlimlərdə və dərslərdə yaxşı nəticələr əldə etmişəm. Döyüş, fiziki və atəş hazırlıqlarımı artırmışam. Hərbi xidmətimi başa vurmağa az qalıb, amma döyüşlər başlayan kimi yenidən komandirimlə çiyin-çiyinə döyüşərək düşmənə gücümüzü göstərəcəyik. Hərbi xidmət həyatımda bir məktəb oldu, həm döyüşçü olmağın, həm də gələcək müstəqil həyatda yaşamağın sirlərini öyrəndim. Arzu edirəm ki, tərxis olmadan öncə düşmən üzərində qələbə qazanıb, torpaqlarımızı işğaldan azad edənlərin sıralarında mən də olum. Hər bir Azərbaycan vətəndaşı kimi inanıram ki, Ali Baş Komandanımızın rəhbərliyi altında o günə az qalıb.

Əsgər İbrahim Paşayev bildirdi ki, bu torpaq bizə babalarımızdan əmanətdir. "Uğrunda neçə-neçə mərd və cəsur həmyerlilərimiz canından keçib. Biz də Vətənin bütövlüyü uğrunda vuruşmağa, torpağımızı qorumağa söz vermişik. O gün təntənəsi ilə yaddaşımda silinməz iz buraxıb. Komandirlərim, valideynlərim qarşısında mən də Vətənimizə şərəflə, məsuliyyətlə xidmət edəcəyimə and içdim. Andımı doğrultmaq üçün hərbi sirləri, döyüş vərdişlərini həvəslə öyrənirəm. Bir sözlə, hazırlığımızı dərslərlə də artırırıq. Düşmənlə savaşa atılmağa hər an hazıram. Hər bir əsgər kimi mən də döyüş meydanında qəsbkarlardan qisas alacağımız günü gözləyirəm".

Heyət nəfəri əsgər Sevər Salmanov bildirdi ki, düşmənlə vuruşacağımız günün intizarındayıq. "Valideynlərim mənə hər zaman Vətəni sevməyin, onu qorumağın vacibliyini başa salıb. İzah ediblər ki, hərbçilər ən şərəfli peşənin sahibləridir. Düşmənə cavab verməyə, hər hansı bir təxribatın qarşısını almağa, ən başlıcası, yağılardan qisasımızı alıb, torpaqlarımızdan qovub çıxarmağa hazırıq. Tezliklə Ali Baş Komandanımızın döyüş əmri ilə Azərbaycan bayrağını işğal altında qalan torpaqlarımızda dalğalandıracağıq. O zaman bütün dünya Azərbaycan Ordusunun gücünü bir daha görəcək".

Əsgərlərdən Təbriz Zeynalov, Ötər Sarxanov və digərləri də hər an döyüşə atılacaqları günün həsrətilə xidmət etdiklərini, torpaqlarımızın keşiyində ayıq-sayıq dayandıqlarını və tez bir zamanda xalqımıza Qələbə sevinci yaşadacaqlarını bildirdilər.

Sözümüz başa çatdıqdan sonra topçulara qələbə sevinci və xidmətlərində uğurlar arzulayıb ayrıldıq. Əsgərlərimizlə söhbətdən sonra bir daha əmin olduq ki, torpaqlarımız etibarlı əllərdədir.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

*Nümunəvi xidmət*

# "Qalib əsgər kimi tərxis olunmaq istəyirik"

*Bu gün ölkəmizdə aparılan mühüm islahatlar bilikli, geniş dünyagörüşə malik, vətənpərvər gənc nəslin yetişməsinə mühüm zəmin yaradıb.*



Gənclər siyasətinin vacibliyini qeyd edən ulu öndər Heydər Əliyev hər zaman bu sahəyə ciddi önəm verirdi. Müasir dönəmdə Ümummilli Liderimizin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən imzalanmış sərəncamlara əsasən, gənclərin sağlam düşüncəyə, geniş dünyagörüşünə malik vətəndaş kimi hazırlanması fonunda da saysız-hesabsız işlər görülür. Təsadüfi deyil ki, Vətəninə, millətinə sadiq olan gənclik torpaqlarımızı göz bəbəyi kimi qoruyur, bayrağımızı həmişə uca tutur.

Hərbi xidmət dövrü gənclərin həyatında mühüm mərhələlərdən biridir. Onlar hərbi xidmətdə Vətəni qorumağın sirlərinə yiyələnir, torpağa sevgisi, məhəbbəti artır.

Əsgər Cavid Abdullayev gənc əsgərdir. Əslən işğal altında olan Qubadlı rayonundandır. Onun sözlərindəki səmimiyyət və qətiyyət məni xeyli qürurlandırdı. "Vətənpərvərlik ən ülvi hissdir, doğma yurda olan sonsuz sevgidir, el-obaya bağlılıqdır. Müqəddəs amala xidmət etməkdir vətənpərvərlik. Bu gün Azərbaycan gəncliyinin nümayəndəsi olaraq, güclü ordunun əsgəri adını daşıdığım üçün qürur duyuram. Vətənə müqəddəs borcumu yerinə yetirirəm. Bu hissdən gözəl başqa nə ola bilər ki?".

Həmsöhbətim işğalda olan ata-baba yurdunun azad olunacağı günün arzusu ilə yaşadığını qeyd etdi. "Bu gün hər bir əsgər torpaqlarımızı azad etmək amalı ilə xidmət edir. Hamımız Ali Baş Komandanın əmri ilə döyüşə atılmağa, xalqımızı qələbə müjdəli xəbərlərlə sevindirməyə hazırıq. Xidmətimizin əsasını bu şüar təşkil edir - "Vətənə sevgi, düşmənə nifrət".

Əsgər C.Abdullayev bildirdi ki, asudə vaxtın səmərəli təşkilinə də ciddi önəm verilir. "Komandirlərimiz tərəfindən keçirilən ictimai-siyasi hazırlıq dərslərində Vətənimizin əlamətdar tarixi, xalqımızın şanlı keçmişi, qəhrəmanlıq nümunələri barədə informasiya bazamızı möhkəmləndiririk. Əsgər Abdullayev "Azərbaycan Ordusu" qəzetinin şeir rubrikasından bir parçanı xatirə dəftərində gəzdirir. "Poeziyaya xüsusi marağım var", - əsgər Abdullayev dedi. - "Azərbaycan Ordusu" qəzetini oxumaq asudə vaxtlarımda ən çox sevdiyim məşğuliyyətlərdən biridir.

Əsgərlərimizlə kəlmələşdikcə qələbəyə inamım daha da kükrəyir... Qətiyyətli sözlər bizi əmin edir ki, Qələbə günü uzaqda deyil. Hər biri qalib əsgər kimi tərxis olunmaq istəyir.

**Baş leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu"**



# Hərbi Dəniz Qüvvələrində intellektual bilik yarışı keçirilib

*2020-ci ilin fəaliyyət planına uyğun olaraq Hərbi Dəniz Qüvvələrində Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin, Qaradağ rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə şəxsi heyətin intellektual bacarıqlarının artırılması məqsədilə iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun anadan olmasının 110 illiyinə həsr olunmuş "Xəmsə" intellektual bilik yarışı keçirilib.*

Bildirilib ki, bu mövzuda keçirilən bilik yarışları şəxsi heyətin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasına müsbət təsir göstərdiyindən belə tədbirlərin keçirilməsinə böyük diqqət ayrılır. İntellektual bilik yarışmasının sualları əsasən qəhrəmanın həyat və fəaliyyətini əhatə edib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, iştirakçıların yüksək intellektual bilik nümayiş etdirdiyi yarışın sonunda qaliblərə diplom və qiymətli hədiyyələr təqdim olunub.

# Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr keçirilib

**(Əvvəli 1-ci səhifədə)**

Biz ərazi bütövlüyündən danışan zaman qərar verməliyik ki, biz hansı ölkənin ərazi bütövlüyü barədə danışırıq. Mənim sualım bundan ibarətdir. Azərbaycan müstəqil ölkə olaraq Sovet İttifaqının ərazi bütövlüyünə hörmət etmişdimi? Azərbaycanın Sovet İttifaqını tərk etdiyi kimi, eyni yolla Dağlıq Qarabağ da Sovet İttifaqını tərk edib. Siz indi deyə bilərsiniz ki, mən hazırda mövcud olmayan ölkə - Sovet İttifaqı barədə danışıram. Lakin Dağlıq Qarabağın da tərkibində olduğu Sovet Respublikası da mövcud deyil. Azərbaycan Sovet Sosialist Respublikası da mövcud deyil. Bu, həqiqətdir. Azərbaycanın Sovet İttifaqından müstəqillik əldə etdiyi kimi, eyni yolla Qarabağ həm Sovet İttifaqından, həm də Sovet Azərbaycanından müstəqilliyini əldə edib. Xocalıya gəlincə isə, 1990-cı illərin ortasında Azərbaycanın sabiq prezidenti Ayaz Mütəllibov Rusiyanın "Arqumentı i Faktı" qəzetinə müsahibə verib. Həmin müsahibədə deyir ki, Xocalıdakı təxribat Azərbaycan müxalifəti tərəfindən onu hakimiyyətdən devirmək üçün təşkil olunub. Əslində, bu, baş verib. Çünki bu hadisə nəticəsində Ayaz Mütəllibov Azərbaycan prezidenti vəzifəsindən devrildi.

BMT Təhlükəsizlik Şurasının qətnamələrinə gəlincə. Bu sənədlərin ümumi mənası nə olub? Bu sənədlərin ümumi mənası hər cür zorakılığın qarşısını almaq və hərbi əməliyyatların dayandırılması məqsədilə qeyd-şərtsiz və dərhal atəşkəs elan edilməsindən ibarət olub. Biz BMT Təhlükəsizlik Şurasının 884 saylı qətnaməsinə baxdıqda görərik ki, orada yazılıb ki, Azərbaycan atəşkəsi pozub və nəticədə torpaqlarını itirib. Hər şeydən öncə Təhlükəsizlik Şurası qətnaməsinin şərtlərinə əməl etməyən Azərbaycan özü idi. Bunu bəyan etmək çox vacibdir. Lakin bilirsiniz, mən Azərbaycan və Ermənistan liderləri üçün hər dəfə eyni şeyləri təkrar etməyin yaxşı yol olduğunu düşünmürəm. Lakin təəssüf ki, son 25, hətta 30 il ərzində biz hər dəfə eyni şeyləri təkrar edirik. Qorxuram ki, beynəlxalq ictimaiyyət müəyyən mənada eyni şeyləri eşitməkdən artıq yorula. Düşünürəm ki, biz yeni ideyalar gətirməliyik. Demək istəyirəm ki, mən qeyri-zorakı "Məxməri xalq inqilabı" vasitəsilə Ermənistanın baş naziri olanda anladım ki, 30 ildir davam edən münaqişəni bir və ya iki addımla həll etmək mümkün deyil. Mən düşündüm ki, bu problemin həlli üçün bizim inqilablara ehtiyacımız var. Mən mikroinqilab proseslərinə başladım və növbəti çıxışım zamanı siz mənə söz verdikdə mən sizə mənim təşəbbüskarı olduğum Dağlıq Qarabağ danışıqları prosesində mikroinqilabların rolu barədə danışacağam. Təşəkkür edirəm.

**Moderator:** Təşəkkür edirəm, cənab baş nazir. Bu, giriş nitqləri idi. Düşünürəm ki, hər ikinizin auditoriyaya təqdim etdiyiniz tarixi qeydlərin məntiqi ardıcıllığı olaraq və bir siyasi alim kimi mən həll yoluna keçmək istəyirəm.

Düşünürəm ki, tarixçilər bizə anlamaqda kömək edə bilər. Lakin onlar həmişə bizə prosesi necə irəli apara bilməklə bağlı kömək edə bilmirlər. Əgər auditoriyada tarixçilər varsa, onlardan üzr istəyirəm. Mən sizin fikirlərinizlə başlamaq istərdim, cənab baş nazir. Siz beynəlxalq ictimaiyyətdən müəyyən fikirlər eşidirsiniz, çox sayda təcrübəli danışıq aparanlardan, bu çağırış üzərində təqribən 30 il işləmiş və münaqişənin sülh yolu ilə həllini dəstəkləməyə çalışmış bir çox insanlardan, beynəlxalq ictimaiyyətdən Dağlıq Qarabağ problemi ilə bağlı görmək istədiyiniz və bu münaqişənin həllini irəli aparmaq üçün sizə kömək edəcək və sizi qane edəcək bir məqam nə olardı? Cavab vermək üçün iki dəqiqəniz var.

**Nikol Paşinyan:** Beynəlxalq ictimaiyyətin edə biləcəyi çox konkret bir məqam var. Bir məsələ aydındır ki, Dağlıq Qarabağ münaqişəsinin hərbi yolla həlli yoxdur. Hərbi yolla həll yoxdur. Beynəlxalq ictimaiyyət bunu güclü və aydın şəkildə bəyan etməlidir. Əgər kimsə əksini düşünürsə, deyirsə ki, Dağlıq Qarabağ münaqişəsinin hərbi yolla həlli mümkündür, güman edirəm ki, Dağlıq Qarabağ münaqişəsi tərəflərinin xalqları cavab verərdi. Bu halda, biz deyə bilərik ki, münaqişə artıq həll edilib.

Lakin mən düşünürəm ki, bizim davamlı sülhə ehtiyacımız var. Ermənistan Dağlıq Qarabağı danışıqlar prosesində təmsil etmir. Lakin mən bilirəm ki, Ermənistan və Dağlıq Qarabağ regionumuzda davamlı sülh yaratmaq üçün real cəhdlər ortaya qoymağa hazırdır. Ermənistanın baş naziri kimi mən bu vəziyyəti anlayıram. Bu, nəinki təkcə ölkəmin təhlükəsizliyi üçün mənim məsuliyyətimdir, eyni zamanda, mən regional təhlükəsizlik və qlobal təhlükəsizlik üçün öz məsuliyyətimi anlayıram. Mən Prezident Əliyevi bu vəziyyəti davamlı sülh, sabitlik yaratmaq üçün bizim qarşılıqlı vəzifəmiz olaraq anlamağa və bu vəziyyəti təkcə milli gündəlik kimi deyil, həm də qlobal, regional təhlükəsizlik gündəliyi kimi və qlobal təhlükəsizlik üçün səylər göstərmək və töhfə vermək kimi vəzifə nöqteyi-nəzərindən anlamağa dəvət edirəm. Sizi əmin edirəm ki, Ermənistan və Dağlıq Qarabağ buna hazırdır.

**Moderator:** Təşəkkür edirəm, cənab baş nazir. Məlumatınız çox faydalı idi. Prioritetlərinizi bizimlə bölüşdüyünüz üçün sizə təşəkkür edirəm.

Prezident Əliyev, eyni sualı sizə verə bilərəm? Siz danışıqlar prosesində çox təcrübəlisiniz. Siz bu məsələ ilə bağlı bu otaqdakıların çoxları ilə təmasda olmusunuz. Lakin bizə anlamağa kömək edin. Hazırkı tarixi məqamda daha vacib olan nədir? Beynəlxalq ictimaiyyət prosesi irəliyə doğru aparmaq və münaqişənin sizin üçün ən məqbul və sülh yolu ilə həlli üçün sizcə nə edə bilər?

**Prezident İlham Əliyev:** İlk növbədə, mən bir şərh vermək istərdim. Mən tamamilə əminəm ki, biz hər ikimiz buraya həqiqəti demək üçün gəlmişik. Mənim giriş nitqimdə dediklərim 100 faiz həqiqətdir. Hansılar ki, elə indi yoxlanıla bilər. Sadəcə, internetə daxil olub istinad etdiyim həmin sənədləri taparaq siz kimin həqiqəti deyib-demədiyini anlaya bilərsiniz. İkinci şərhim budur. Mən, təəssüf ki, ermənilərin Xocalıda törətdiklərinə bəraət qazandırmaq cəhdinə çevrilmiş bu vəziyyətə aydınlıq gətirmək istərdim. Prezident Ayaz Mütəllibovun səhhəti çox yaxşıdır və Bakıda yaşayır. Ola bilsin ki, Ermənistan tərəfi bunu bilmir. O, bu yaxınlarda və bir neçə dəfə deyib ki, o, heç vaxt Xocalı soyqırımının azərbaycanlılar tərəfindən təşkil edildiyini deməyib. Günümüzdə deyildiyi kimi, bu, "feyk" xəbərdir. Rusiyadakı bəzi erməni jurnalistlər tərəfindən icad olunub və Rusiya mətbuatında dövriyyəyə buraxılıb. Lakin o, heç vaxt bunu deməyib. Bu, tamamilə bir həqiqətdir. Xocalıda soyqırımı törədənlərin adları hamıya məlumdur. Onlar yerli ermənilər idi, Ermənistandan olan ermənilər və diaspordan olan ermənilər idi. Bu şəxslərin adları hamıya məlumdur. Bu barədə çoxlu kitablar və beynəlxalq məqalələr çap olunub. Ona görə azərbaycanlıların özlərinin 63 uşağı, 100 qadını vəhşicəsinə öldürdüyünü demək, eyni zamanda, 1000 nəfərin itkin düşdüyünü söyləmək, bu, sinizmin zirvəsidir.

Beynəlxalq ictimaiyyətin nə etməli olduğu məsələsinə gəlincə, düşünürəm ki, ən vacib olan odur ki, beynəlxalq ictimaiyyət, - biz beynəlxalq ictimaiyyətdən danışan zaman əsasən ATƏT-in Minsk Qrupu həmsədrlərinin səylərini nəzərdə tuturuq, - onlar, nəhayət, Ermənistan tərəfinə çox aydın şəkildə izah etməlidirlər ki, Dağlıq Qarabağ Ermənistan deyil, Dağlıq Qarabağ müstəqil ölkə deyil! Heç kim bu qeyri-qanuni qurumu tanımır. Bu, birincisidir. İkincisi, düşünürəm ki, Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməklə bağlı beynəlxalq təzyiq daha çox Ermənistana göstərilməlidir. Çünki BMT Təhlükəsizlik Şurasından daha yuxarı olan beynəlxalq orqan yoxdur. Onlar 4 qətnamə qəbul ediblər. Onları yoxlamaq çox asandır. Mütəxəssislərə onların nömrələri məlumdur. Onlar nə deyir: Erməni qoşunları işğal edilmiş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Təkcə Dağlıq Qarabağ işğal edilməyib. Həmçinin onun ətrafındakı 7 rayon da işğal olunub. Ermənistan bunu gizlətmək istəyir. Bu, o 7 rayondur ki, ermənilər heç vaxt orada yaşamayıb. 1989-cu ilin son sovet əhali siyahıyaalınmasında Dağlıq Qarabağın əhalisi 189 min nəfər olaraq qeydə alınıb. Onlardan 139 mini ermənilər, 48 mini azərbaycanlılar və digər xalqların nümayəndələri idi. Beləliklə, Dağlıq Qarabağ və qədim şəhərimiz olan Şuşadan bütün azərbaycanlılar etnik təmizləməyə məruz qalıb. Sonra bütün azərbaycanlılar 7 rayonda etnik təmizləməyə məruz qalıb. Ermənilər bizim xalqımıza, mədəniyyətimizə qarşı soyqırımı törədiblər, məscidlərimizi, məzarlarımızı dağıdıblar, şəhərlərimizin adlarını dəyişdiriblər. Onlar hazırda bütün işğal edilmiş ərazilərdən ibarət olan Dağlıq Qarabağın xəritəsini çap ediblər. Sonra onlar deyirlər ki, biz bu reallıqlarla razılaşmalıyıq. Ona görə də beynəlxalq ictimaiyyət izah etməlidir ki, Dağlıq Qarabağ Azərbaycandır. İkincisi, təcavüzkara ciddi təzyiq göstərməlidir ki, dayansın. Baş nazir... bir dəqiqə gözləyin... Baş nazir indicə sülhdən danışdı. Yaxşı mən razılaşıram. Lakin onda bu, bu gün baş verənlə, təmas xəttində azərbaycanlı əsgərin erməni snayperi ilə öldürülməsi ilə necə uzlaşır?

**Moderator:** Hesab edirəm ki, çağırışın elementləri hər kəsə aydındır. Mürəkkəb tarix var, müxtəlif siyasi rejimlərin tərkibinə daxil olan ərazilər var, məcburi köçkünlərin və hər iki tərəfdən ölənlərin faciəsi, etimad və siyasi danışıqların irəliləməsi üçün zəmin yaratmaq məqsədilə kifayət qədər zaman kəsiyində tələblərinə əməl olunmayan atəşkəs var. Buna görə mən bu məsələlərin bəziləri ilə bağlı sizi sual verməyə dəvət edirəm.

**Nikol Paşinyan:** Mən bir neçə qeyd edə bilərəm?

**Moderator:** Mən suallara keçmək istəyirəm və güman edirəm ki, veriləcək suallar əsnasında bu məsələlərin bəziləri ilə bağlı fikirlərinizin davamını bildirmək imkanınız olacaq. Mənin rəhbərim burada əyləşib və mən qaydaları pozmaq istəmirəm, ona görə də suallara keçmək istəyirəm. Təşəkkür edirəm cənab. Bəli, buyurun, birinci sual, zənnimcə, auditoriyada mikrofon var. Buyurun. Sual vermək üçün şərait yaradıram, amma siz məni məyus edirsiniz. Bu, belədir? Cənab baş nazir, sizə qayıdıram. Cənab baş nazır, siz fikrinizin davamını bildirə bilərsiniz. Biz o suala qayıdacağıq. Buyurun.

**Nikol Paşinyan:** Bilirsiniz, mən bir neçə qeyd etmək istərdim. İlk növbədə, BMT Təhlükəsizlik Şurasının qətnaməsi ilə bağlı. Orada Ermənistan qoşunları sözü yoxdur. Orada "yerli erməni qüvvələri" yazılıb. Bu, o deməkdir ki, Dağlıq Qarabağ əhalisi özünümüdafiə üçün qüvvələr yaradıb, orada Ermənistan qoşunları yazılmayıb. Qurbanlara gəlincə. Bəli, bu, faciədir, bu, münaqişədir və bu münaqişə nəticəsində minlərlə adam, həm erməni, həm də azərbaycanlı həlak olub. Bu, faktdır. Lakin şəxsən mən "Arqumentı i Faktı" qəzetində Azərbaycanın sabiq prezidentinin müsahibəsini oxumuşam. Düşünürəm ki, biz onu internetdə asanlıqla tapa bilərik. Tarixi faktlara gəlincə, "Dağlıq Qarabağ qanuni aspekt" kitabı var. Siz mənim dediklərimi orada tapa bilərsiniz və siz bunu tarix kitablarından tapa bilərsiniz. Şəhərin adları və etnik təmizləmə barədə. Dağlıq Qarabağda Şaumyan adlı rayon var idi.

**Prezident İlham Əliyev:** Xeyr. O, Dağlıq Qarabağda deyildi. O, Dağlıq Qarabağda deyildi. Xeyr, xeyr...

**Moderator:** Mən Sizə söz verəcəyəm.

**Nikol Paşinyan:** Yaxşı, yaxşı. Şaumyan var. Mənim fikrimcə Dağlıq Qarabağda. Yaxşı.

**Prezident İlham Əliyev:** Görürsünüz, yalan danışır.

**Moderator:** Mən Sizə söz verəcəyəm.

**Nikol Paşinyan:** Şaumyan rayonu var idi və 1988-ci ildə oranın əhalisi 100 faiz ermənilərdən ibarət idi. İndi isə orada bir erməni yoxdur və Şaumyan adı azərbaycanca adla əvəz olunub. Bu, mənim üçün çətin sözdür. Prezident Əliyev dedi ki, bu gün Azərbaycan əsgəri öldürülüb və mən deyə bilərəm ki, bu gün Qazaxda Ermənistan və Azərbaycan sərhədində erməni əsgər Azərbaycan snayperləri tərəfindən yaralanıb. Bu prosesi dayandırmaq üçün nə etmək bizim qarşılıqlı vəzifəmizdir?

**Moderator:** Çox sağ olun. Bu, sözü sizə vermək üçün yaxşı məqamdır. Cənab Prezident, mən Sizə razı olmadığınız spesifik məqamlarla bağlı cavab vermək imkanı verəcəyəm. Sonra bizim sualımız var və mən bu fürsəti qaçırmaq istəmirəm.

**Prezident İlham Əliyev:** Sadəcə, şərhlərimi bildirmək istəyirəm. Çünki bir daha qeyd edirəm, mən buraya həqiqəti söyləməyə gəlmişəm. Bir daha deyirəm. Mən "Arqumentı i Faktı"da nə yazıldığını bilmirəm. "Arqumentı i Faktı" çox sayda erməninin çalışdığı bir qəzet, müstəqil qəzetdir. Rusiyanın aparıcı mətbuat orqanlarına rəhbərlik edən ermənilərin sayı bizə Azərbaycanda məlumdur. Beləliklə, onlar istədiklərini yaza bilərlər. Ona görə də mən Azərbaycanın sabiq prezidenti Ayaz Mütəllibovun rəsmi bəyanatına istinad edirəm. O deyib ki, heç vaxt belə deməyib. İndi isə baxın. Prezident, sabiq prezident, onun sözləri və bir ermənipərəst və ya erməni jurnalistin sözləri. Hansının dəyəri daha çoxdur? Bu, birincisi. Şaumyana gəlincə. Cənab baş nazir indicə qeyd etdi ki, Dağlıq Qarabağı Azərbaycana vermək qərarını Stalin verib. Bu, səhvdir. Bir daha Qafqaz Bürosunun qərarına baxın, 1921-ci il iyul, orada deyilir ki, Dağlıq Qarabağı Azərbaycanda saxlamaq, Azərbaycana vermək yox. Əgər o Stalini belə çox bəyənmirsə, qəribədir ki, niyə Şaumyanı belə çox bəyənir? Çünki Şaumyan bolşeviklərdən biri idi. O, günahsız azərbaycanlıları qətlə yetirmiş şəxs idi. Bugünkü Dağlıq Qarabağın qondarma paytaxtı onun adı ilə adlandırılıb. Sual olunur: əgər Dağlıq Qarabağ qədim Ermənistan ərazisidirsə, niyə paytaxtın adı qədim erməni adı ilə adlandırılmayıb. Çünki paytaxtın qədim adı Xankəndidir - Xanın kəndi. Stepanakert, çünki Şaumyanın adı Stepan idi, kert Ermənistanda şəhər deməkdir, elə deyilmi? Stepanakert həmin bolşevikin adı ilə adlandırılıb. Bu, bir daha onu sübut edir ki, həmin ərazilərdə heç bir erməni tarixi irsi yoxdur və mənim başladığım məqama gəldikdə bu tarixi məsələ münaqişənin necə həll olunmalı olduğunu başa düşmək üçün mühümdür.

**Moderator:** Çox sağ olun cənab. Ümid edirəm ki, hər kəs qeydlər aparır, çünki bizə burada müxtəlif məqamlardan ibarət olan tarix dərsi verilir. Sualımız var. Buyurun. Xahiş edirəm özünüzü təqdim edin ki, biz kiminlə danışdığımızı bilək.

**Auditoriyadan sual:** Çox sağ olun. Mənim adım Forin Krinadır. Mən beynəlxalq hüquq üzrə Maks Plank İnstitutunun tədqiqatçısıyam. Prezident Əliyev artıq beynəlxalq hüququn rolunu qeyd etdi. Mənim sualım hər iki tərəfə aiddir. Siz bu mübahisəni xüsusi razılaşma vasitəsilə Beynəlxalq Ədalət Məhkəməsinə təqdim edərdinizmi?

**(Ardı 5-ci səhifədə)**

# Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr keçirilib

(Əvvəli 4-cü səhifədə)

**Moderator:** Cənab Prezident, Sizdən suala birinci cavab verməyinizi xahiş edə bilərəmmi?

**Prezident İlham Əliyev:** Azərbaycan danışıqlar prosesinə sadiqdir, ona görə də biz ərazi bütövlüyümüzü danışıqlar yolu ilə bərpa edə biləcəyimizlə bağlı ümidlərimizi itirməmişik. Bu səbəbdən də hələ də bu ümidləri bəsləyərkən ola bilsin ki, bu, ən yaxşı seçim olmayacaq. Lakin əgər Ermənistan tərəfdən yeni yanaşma nəticəsində danışıqlar tamamilə pozulsa, onda, əlbəttə ki, bu seçim nəzərdən keçirilə bilər...

**Moderator:** Təşəkkür edirəm, cənab Prezident. Cənab baş nazir.

**Nikol Paşinyan:** Dediyim kimi, biz də danışıqlar prosesinə, sülh prosesinə sadiqik. Düşünürəm ki, danışıqlar ATƏT-in Minsk Qrupunun həmsədrliyi formatında aparılmalıdır. Biz çox intensiv şəkildə işləyirik. Qeyd etdiyim kimi, biz real dəyişiklik etmək və münaqişənin həllinə çatmaq üçün real səylər göstərməyə hazırıq. Lakin heç kim məndən danışıqlar prosesində etdiyim mini inqilablar barədə heç nə soruşmadı. Ümidvaram ki, imkanım olacaq.

**Moderator:** Xahiş edirəm, buyurun izah edin. Mən sizdən bizə bunu izah etməyinizi xahiş edirəm.

**Prezident İlham Əliyev:** Bəlkə gələn dəfə? Mən inqilablar haqqında eşitmək istəmirəm.

**Moderator:** Mini inqilablar, xahiş edirəm izah edin.

**Nikol Paşinyan:** Bilirsiniz, mənim konseptual qavrayışım ondan ibarətdir ki, artıq qeyd etdiyim kimi, uzunmüddətli münaqişəni bir-iki addımda həll etmək mümkün deyil. Niyə mən bizim mikroinqilaba ehtiyacımız olduğunu deyirəm. Çünki düşünürəm ki, şərti olaraq bizim mikroinqilaba ehtiyacımız var ki, onu mini inqilaba çevirək və ondan sonra danışıqlar prosesində real irəliləyişə nail olaq. Mikroinqilab nədən ibarət idi? 2018-ci ilin sentyabrında mən elan etdim ki, Dağlıq Qarabağ münaqişəsinin istənilən həlli Ermənistan xalqı üçün, Qarabağ əhalisi üçün və Azərbaycan xalqı üçün məqbul olmalıdır. Niyə bu, mikroinqilabdır? Çünki mən istənilən həllin həm də Azərbaycan xalqı üçün məqbul olmalı olduğunu deyən ilk Ermənistan lideriyəm. İndi isə həmin inqilabdan bir ildən çox müddət ötəndən sonra mən istənilən həllin bütün tərəflər üçün məqbul olmalı olduğunu deyən təkcə Ermənistan lideri deyil, həm də Azərbaycan və Ermənistan liderləri arasında bunu deyən yeganə liderəm. Bu, çox mühüm mikroinqilabdır. Başqa bir inqilab, mətbuat konfranslarımdan birində mən azərbaycanlı və erməni sosial şəbəkə istifadəçilərini sosial şəbəkədən bir-birini incitmək, bir-birini hədələmək və bir-birini təhqir etmək üçün istifadə etməməyə, sosial şəbəkədən, yeni texnologiyalardan bir-birini daha yaxşı başa düşməyə çalışmaq üçün istifadə etməyə çağırdım. Bu, başqa bir yoldur. Mən birbaşa Azərbaycan xalqına müraciət etməyə çalışdım və əgər Prezident Əliyev etiraz etmirsə, mən Prezident Əliyevin Ermənistan xalqı ilə danışmağına da etiraz etmirəm. Lakin bizdə çox qəribə bir fakt var. Prezident Əliyev Dağlıq Qarabağın nümayəndələri ilə danışmaqdan imtina edir. Bu, çox qəribə faktdır. Dağlıq Qarabağın nümayəndələri ilə danışmadan Dağlıq Qarabağ münaqişəsini necə həll etmək mümkündür? Yeri gəlmişkən, Dağlıq Qarabağ ATƏT tərəfindən münaqişə tərəfi, danışıqlar tərəfi kimi tanınıb. Bu, iki dəfə - 1992-ci il martın 24-də və 1994-cü il ATƏT-in Budapeştdəki sammitində baş verib.

**Moderator:** Çox sağ olun.

**Nikol Paşinyan:** Çox sağ olun.

**Moderator:** Prezident Əliyev, icazə verin, sizdən soruşum. Müharibədən əziyyət çəkmiş Azərbaycan vətəndaşlarının, Ermənistan vətəndaşlarının, Dağlıq Qarabağ sakinlərinin və həmin işğal olunmuş ərazilərdən məcburi köçkünlərin təklif olunan üç mikroinqilab barədə fikirlərini öyrənmək və sosial mediadan düşmənçilik yaratmaq üçün vəziyyəti daha kəskinləşdirən bir qüvvə kimi deyil, insanların bir-biri ilə səmimi danışmaq üçün bir vasitə kimi istifadə edilməsi ilə bağlı nə düşünürsünüz?

**Prezident İlham Əliyev:** Bilirsiniz, mənim Ermənistan rəhbərləri ilə danışıqlar təcrübəmdən çıxış edərək, deyə bilərəm ki, mənim cənab Paşinyanın iki sələfi ilə də danışıqları aparmaq imkanım olub. Hər zaman danışıqların ən həlledici məqamında söhbəti davam etdirməmək üçün müəyyən bəhanə tapıblar. Digər sözlə desək, onların hamısı status-kvonun dəyişməz olaraq qalmasını istəyiblər. Lakin elə onların da hamısı buna fərqli tərzdə nail olmağa çalışıblar. İndi isə baş nazir Paşinyanın öz təklifi haqqında danışanda və söyləyəndə ki, həll variantı Azərbaycan xalqı tərəfindən qəbul edilən olmalıdır, mən buna cavab vermişəm və Azərbaycan xalqı üçün nəyin qəbul edilən olduğunu söyləmişəm. Erməni təcavüzündən əziyyət çəkmiş Azərbaycan vətəndaşları öz evlərinə qayıtmaq istəyirlər. Bu, onların fundamental hüququdur. Onlar Ermənistan rəhbərliyinə görə demək olar ki, otuz ildir bu hüquqdan məhrum ediliblər. Söhbət Dağlıq Qarabağdan getmir. Baş nazir Dağlıq Qarabağın dırnaqarası özünümüdafiə qüvvələrindən danışanda, o, bir daha həqiqətə uyğun olmayan sözlər söyləyir. O, çox yaxşı bilir və mən də bilirəm ki, dırnaqarası Dağlıq Qarabağ ordusunun 80 faizini Ermənistan vətəndaşları təşkil edir. Bu, həqiqətdir. Bəlkə, 80 faizdən də artıqdır. Buna görə, "Dağlıq Qarabağ ordusu" anlayışı yoxdur. "Dağlıq Qarabağ respublikası" anlayışı yoxdur. Münaqişənin yalnız iki tərəfi var: Ermənistan və Azərbaycan. ATƏT-in Minsk Qrupunun həmsədrlərindən soruşun: münaqişə tərəfləri kimlərdir? Onlar da eyni sözləri söyləyəcəklər: Ermənistan və Azərbaycan. Dağlıq Qarabağ deyil. Nəyə görə yox? Bu, başqa sualdır. Lakin o, tərəf deyil və biz onlarla danışmayacağıq. Biz təcavüzkarla danışıqlar aparırıq. Biz Dağlıq Qarabağla danışmağa hazır olarıq ki, Ermənistan həmin qeyri-qanuni rejimi maliyyələşdirməsini dayandırsın, bütün hərbi qoşunları Dağlıq Qarabağdan çıxarsın və bizim əraziləri tamamilə tərk etsin. Sonra isə bizim həmin insanlarla danışıq aparmağa arqumentimiz olacaq. Lakin nə qədər ki, onlar oradadır, bu, baş verməyəcək. Onlar status-kvonu dəyişməz olaraq saxlamaq istəyirlər. Hesab edirlər ki, həmin əraziləri daim işğal altında saxlaya bilərlər. Əminəm ki, bu, belə qalmayacaq. Ərazi bütövlüyümüz bərpa edilməlidir.

İkinci hissəyə gəlincə, bu yaxınlarda biz jurnalistlərin qarşılıqlı səfərlərini təşkil etdik. Fikrimcə, bu, elə bir təcrübədir ki, biz onu qiymətləndirməliyik. Onun mənfi və müsbət tərəflərini qiymətləndirməliyik, çünki həm Ermənistan, həm Azərbaycandakı cəmiyyətin bir hissəsi bu formatı o qədər dəstəkləmədi. Lakin bu, hər iki liderin qərarı idi ki, buna bir cəhd edilsin. Biz sülh yolu ilə məsələnin həlli üçün hər bir imkanı sınaqdan keçirmək istəyirik. Erməni xalqını inandırmaq istəyirik ki, onlar daim bu cür yaşaya bilməz. Onlar bizimlə çözüm tapmalıdırlar və gələcəkdə qonşu kimi sülh şəraitində yaşamalıdırlar.

**Moderator:** Sizin burada konstruktiv cəhdləriniz haqqında söylədiklərinizi yüksək qiymətləndiririk, çünki biz bu yanaşmanı dəstəkləyirik. Bəlkə əlavə bir suala və yekun fikirlərə vaxtımız qalır. Auditoriyadan bir sual var. Buyurun.

**Sual:** Çox sağ olun. Adım Yelena Çernenkodur. Mən "Kommersant" qəzetinin rus jurnalistiyəm və "Münxen gənc liderləri 2015" təşkilatının üzvüyəm. Rusiya ATƏT prosesi çərçivəsində məsələnin həllinə çalışan ölkələrdən biridir. Belə başa düşdüm ki, təkliflərdən biri status məsələsinin sonraya saxlanması və tərəflərin daha həvəslə razılaşa biləcəyi məsələlərə diqqət yetirmək idi. Məsələn, Dağlıq Qarabağın ətrafında olan rayonlar, dəhlizin yaradılması və digər addımları nəzərdə tuturam. Beləliklə, siz status məsələsini sonraya saxlayaraq, bəlkə başqa addımlarla nəticələnə biləcək keçid həll variantı üçün hər hansı şans görürsünüzmü? Sağ olun.

**Moderator:** Prezident Əliyev, şərhiniz varmı?

**Prezident İlham Əliyev:** Bəli, düşünürəm ki, bu, mümkündür. Bu təklif Azərbaycan tərəfindən ciddi şəkildə nəzərdən keçirilmişdir və bütövlükdə, biz buna razılıq vermişdik. Bu, atıla biləcək ən məntiqli addımdır. Aydındır ki, biz bu münaqişəni mərhələlərlə həll etməliyik. Münaqişəni tam şəkildə bir gündə həll edə bilmərik. O, mərhələli olmalıdır və birinci mərhələdə jurnalistin söylədiyi və Rusiyanın təklif etdiyi kimi, işğal olunmuş ərazilərin bir qisminin azad edilməsi baş verməlidir, Azərbaycan məcburi köçkünləri həmin ərazilərə qayıtmalıdır, həmin ərazilərdə yenidən köçürülmə olmalıdır və eyni zamanda, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesi getməlidir. Bu halda, Dağlıq Qarabağın statusu hər iki tərəf hazır olanda sonrakı müzakirəyə qala bilər, çünki yerlərdə proses getməsə, ərazilərin azad edilməsi başlamasa, status üzərində razılığa gəlmək mümkün olmayacaq. Bizim mövqeyimiz ondan ibarətdir ki, status məsələsi Azərbaycanın ərazi bütövlüyünə müdaxilə etməməlidir. Eyni zamanda, biz həmişə söyləyirik ki, Azərbaycan çoxkonfessiyalı, çoxmillətli ölkədir. Azərbaycanda sülh və rahat şəkildə yaşayan çox sayda etnik azlıqlar var. Ərazi bütövlüyümüz tam bərpa olunarsa, ermənilər milli azlıq kimi, ölkəmizdə istənilən digər millətin nümayəndəsi kimi, bütün hüquqlara və imtiyazlara malik olacaqlar.

**Moderator:** Sağ olun, Prezident Əliyev. Addımbaaddım kiçik inqilabları irəli doğru aparırıq. Bu mövzunu bəyənirəm.

**Nikol Paşinyan:** Yeri gəlmişkən, bizim bir kiçik və qarşılıqlı inqilabımız var. Ümid edirəm ki, bunu söyləməyə imkanım olacaq.

**Moderator:** Buyurun, söz sizindir.

**Nikol Paşinyan:** Bəli. İlk dəfə Tacikistanın paytaxtı Düşənbə şəhərində görüşəndən sonra biz Prezident Əliyevlə kiçik inqilab etdik, çünki həmin görüş nəticəsində gərginlik, ümumilikdə, görünməmiş dərəcədə azaldı. Biz təmas və informasiya məqsədli birbaşa xətti yarada bildik. Etiraf etməliyəm ki, bu halda, Prezident Əliyev və mən bu təşəbbüsün birgə müəllifləriyik. Prezident Əliyevin söylədiyi ərazilərə gəldikdə, Azərbaycanın nöqteyi-nəzərindən bunlar ərazidir. Lakin Qarabağın nöqteyi-nəzərindən, bu, təhlükəsizlikdir. Çünki biz anlamalıyıq ki, hazırkı status-kvo nə səbəbə görə yaranıb. Dağlıq Qarabağ öz müqəddəratını təyinetmə hüququndan yararlanmaq istədiyi zaman Dağlıq Qarabağın ermənilərinə qarşı hərbi əməliyyatlar başladı. Dağlıq Qarabağ erməniləri öz müdafiəsini təşkil etməyə məcbur oldular. Prezident Əliyev Şuşa haqqında danışdı. Dağlıq Qarabağın paytaxtı Stepanakert illər ərzində Şuşadan bombardman edilirdi. Dinc vətəndaşlar isə çox uzun müddət ərzində zirzəmilərdə yaşamalı idilər. Bu, həqiqətdir. Bilirsiniz, heç kəsin təhlükəsizliyi kənarda qala bilməz. Bu, Qarabağa da aiddir. Prezident Əliyev Azərbaycanın hərbi qüvvələri haqqında danışdı. Mənim oğlum hərbi qulluğu Dağlıq Qarabağda keçir. Lakin o, oraya həmvətənlərini müdafiə etmək üçün könüllü qaydada gedib, çünki o, tarixi, 1998-ci ildən nəyin baş verdiyini bilir. Mən Şaumyan rayonu haqqında artıq söylədim. Oranın əhalisi 100 faiz erməni idi. İndi orada heç bir erməni yaşamır. Biz çox böyük erməni əhalisi olan Naxçıvan məsələsini də bilirik. O, Azərbaycanın muxtar respublikasıdır. Hazırda orada heç bir erməni yoxdur. Bir cümləni də söyləyim. Prezident Əliyev deyir ki, Dağlıq Qarabağ danışıqların və münaqişənin tərəfi deyil. Lakin Azərbaycan iki dəfə Dağlıq Qarabağla razılaşma imzalayıb. Birincisi, 1994-cü ildə oldu. Bu, Ermənistan, Dağlıq Qarabağ və Azərbaycan arasında atəşkəs sazişi idi. Müdafiə nazirləri onu imzaladılar. Üç aydan sonra, 1994-cü ilin iyulunda onlar təsdiqlədilər ki, atəşkəs münaqişənin siyasi həllinə qədər qorunub saxlanılacaq.

**Moderator:** Bir sözlə, bizim sessiyamız başa çatır. Mən Prezident Əliyevə və baş nazir Paşinyana çox gözəl biliklərinə, bu söhbətə xüsusi bağlılıqlarına görə təşəkkürümü bildirmək istəyirəm. Fikrimcə, aydındır ki, hər iki lider münaqişənin həllinə və həmçinin onun necə həllinə də biganə deyillər. Biz bundan azını onlardan gözləyə bilmərik. Əlavə olaraq, hesab edirəm ki, bu çətin məsələni, onun dinamikasını, elementlərini tam həcmdə nəzərdən keçirdik. Mən hər ikinizə təşəkkür edirəm ki, biz, eyni zamanda, münaqişənin təsir göstərdiyi insanların həyatını yaxşılaşdırmaq üçün irəliyə getmək imkanların mümkün elementləri barədə də eşitdik. Kim bilir, bəlkə də mikroaddımlarla, mikroinqilablarla dinc yolla həllin tapılmasında konstruktiv proses başlaya bilər. Beləliklə, Münxen Təhlükəsizlik Konfransı çərçivəsində belə bir tarixi fürsət bizə nəsib olduğu üçün biz çox xoşbəxtik. Fikirlərini bizimlə bölüşdüklərinə görə Prezident Əliyevə və baş nazir Paşinyana təşəkkürümüzü bildirək. Buyurun.

**Prezident İlham Əliyev:** Sadəcə, bir qeyd edim.

**Moderator:** Konstruktiv olsun.

**Prezident İlham Əliyev:** Konstruktiv, bəli. Öz müqəddəratı haqqında danışacağam. Yalnız bu haqda. Yerevanda əhalinin XIX əsrin əvvəlində 70 faizinin azərbaycanlı olması faktını bir yana qoyuram. Bunu bir yana qoyuram...

**Moderator:** Bu, konstruktiv deyil.

**Prezident İlham Əliyev:** Bunun haqqında danışmayacağam. Öz müqəddəratına gəldikdə, onlar hər zaman bu haqda danışırlar.

**Moderator:** 30 saniyə.

**Prezident İlham Əliyev:** Erməni xalqı öz müqəddəratını artıq təyin edib. Onların erməni dövləti var. Mənim məsləhətim belə olacaq ki, onlar ikinci dəfə öz müqəddəratını təyin etmək üçün Yer kürəsində başqa yer tapsınlar, Azərbaycanda yox!

**Moderator:** 30 saniyə.

**Nikol Paşinyan:** Cənab Prezident, bu, o qədər də konstruktiv olmadı. Lakin mən deyərdim ki, Böyük Tiqranın dövründə bizim regionda yalnız iki millət var idi: ermənilər və gürcülər.

**Prezident İlham Əliyev:** Ermənilər və ermənilər.

**Nikol Paşinyan:** Nəinki Böyük Tiqranın dövründə, o cümlədən Baqratunilər, Arşakunilər dövründə də belə olub. Bunu istənilən tarix kitabında tapa bilərsiniz. Mən bu müzakirəyə görə çox minnətdaram və bir daha, vurğulamaq istərdim ki, Ermənistan və Dağlıq Qarabağ bu münaqişənin həllində real səyləri göstərməyə hazırdırlar. Təşəkkür edirəm.

**Moderator:** Hər kəsə təşəkkür edirəm.

# MOİK təmsilçiləri güləş üzrə Avropa çempionatında 4 medal qazanıb



*Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, İtaliyanın paytaxtı Roma şəhərində keçirilən güləş üzrə Avropa çempionatında milli komandamızın tərkibində yarışan Müdafiə Nazirliyi Mərkəzi Ordu İdman Klubunun (MOİK) təmsilçiləri də uğurla çıxış edirlər.*

Avropa çempionatının finalında mübarizə aparan sərbəst güləşçimiz baş leytenant Ağahüseyn Mustafayev (70 kiloqram) yarışların gümüş medalına sahib olub.

Pəhləvanımız A.Mustafayev ilk mərhələdə Ermənistan idmançısı ilə üz-üzə gəlib. Prinsipial qarşılaşmaya rəqib daha yaxşı başlayıb və 8:0 hesabı ilə önə keçib. Ancaq özünü itirməyən idmançımız inanılmaz əzmkarlıq nümayiş etdirərək geridönüş edib. İkinci hissədə rəqibə göz açmağa imkan verməyən Avropa çempionatının gümüş mükafatçısı yarışa inamlı qələbə ilə start verib və 15:8 hesabı ilə qalib gəlib. Təmsilçimiz sonra Belarus təmsilçisindən güclü olub. Ukrayna güləşçisini də mübarizədən kənarlaşdıran idmançımız yarımfinala adlayıb. A.Mustafayev Moldovadan olan güləşçiyə də qalib gələrək ikinci dəfə Avropa çempionatının finalına yüksəlib. Həlledici görüşdə Polşanı təmsil edən dağıstanlı həmkarına yenilən



Ağahüseyn Avropa çempionatının gümüş medalı ilə kifayətlənib.

Millimizin tərkibində çıxış edən digər MOİK təmsilçiləri də yarışlarda inamla çıxış edərək bir qızıl, bir gümüş, ikisi bürünc olmaqla, ümumilikdə 4 medal qazanıblar.

# Hərbi qulluqçumuz şəhid olub

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, fevralın 15-də Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhə xəttində atəşkəs rejimini kobud surətdə pozmaqla növbəti dəfə təxribat törədib. Düşmən tərəfindən açılan atəş nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçusu Ələsgərov Seymur Eldar oğlu şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin əzizlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir və səbr diləyir!

Cəbhə xəttində vəziyyətin gərginləşdirilməsinə görə bütün məsuliyyət Ermənistan tərəfinin üzərinə düşür.

# Azərbaycanlı veteranın yaşadığı evdə xatirə lövhəsi quraşdırılacaq

Rusiyanın Voronej şəhərində Böyük Vətən müharibəsi veteranı, əslən azərbaycanlı Məmməd Cəbrayılovun yaşadığı evdə xatirə lövhəsi quraşdırılacaq.

AZƏRTAC xəbər verir ki, Voronej meriyasının mətbuat xidmətinin məlumatına görə, şəhərin Mədəni İrs Komissiyası yaxın vaxtlarda bu məsələni müzakirə edəcək.

Böyük Vətən müharibəsi veteranı Məmməd Cəbrayılov Voronejin müdafiə dəstələrinin tərkibində vuruşub, 1941-ci ildə Moskvada, Qızıl Meydanda hərbi paradın iştirakçısı olub. Məmməd Cəbrayılov 2019-cu ildə 102 yaşında vəfat edib.

Voronejin Azərbaycan diasporu xatirə lövhəsinin hazırlanmasına yardım göstərəcəyini bildirib.

# Bu faciə unudulmayacaq

*Xocalı soyqırımından 28 il keçir. Bu faciə erməni vəhşiliyi kimi tarixləşdi. Dünya ictimaiyyəti gördü ki, ermənilər bəşəri duyğulara, insani xarakterə malik deyil. Bir gecənin içində Xocalıda yüzlərlə ev yandırıldı, yüzlərlə xocalılı qətlə yetirildi. Ağdama tərəf qaçanlar təqib olundu. Qarda, meşələrdə güllələndilər, qaça bilməyənlər soyuqdan dondular. Körpələr ana qucağında, yaşlılar övladlarının qucağında keçindilər. Neçə cavan qız əsir düşməmək üçün intihar etdi. Ata əsir düşməsin deyə əvvəl öz qızını, sonra özünü güllələdi...*

Bu faciə rus ordusunun 366-cı alayının köməyiylə həyata keçirilmişdi. Qırğınlardan xilas olanlar o gecənin dəhşətlərini xatırlayanda həmin ağrıları yenidən yaşayırlar. Bir dəfə Xocalı soyqırımı abidəsinin yanında bir qadının azyaşlı qızına dediklərini eşitdim: "Mən Xocalı faciəsiylə yaşadım, qızım. Mən həmin gecə doğulmuşam. Anamı Ağdama çətinliklə çatdırıblar. Bu faciə məni son nəfəsiməcən ağrıdacaq. Məndən sonra bu faciəni sən də unutma..."

Bu faciəni biz də unutmayacağıq... Bizdən sonra da unudulmayacaq...

Xocalı faciəsi həm də ədəbiyyatda yaşadılacaq. Bu faciə haqqında yazılan əsərlər gələcək nəsillərin yaddaşına hopacaq. Xalqımızın tarixi kimi. Qan yaddaşı kimi...

**Hüsniyyə İDRİSOVA,**
**BDU-nun III kurs tələbəsi**

# Xocalıya ədalət istəyi ilə...

*Xocalı faciəsini dilimizə gətirəndə ürəyimiz ağrıyır, qəlbimiz göynəyir. Erməni işğalçılarının 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda törətdikləri soyqırımı faciəsindən artıq 28 il keçir. 28 ildir ki, Xocalı adlı yaramızdan qan sızır. Xocalı harayının, Xocalı hayqırtısının səsi kəsilmir, getdikcə daha da güclənir. Təəssüflər olsun ki, Xocalı faciəsinin həyəcan və qan dolu harayını dünya eşitmək istəmir. Erməni qəsbkarlarının bu qanlı əməlləri dünya dövlətləri tərəfindən lənətlənmir, pislənilmir. Bizim məqsədimiz və amalımız Xocalı faciəsini dünyaya çatdırıb tanıtdırmaq, ermənilərin qanlı əməllərini ifşa etməkdir. Məqsədimizə çatmaq üçün bütün imkanlardan səmərəli istifadə etməyə çalışmalıyıq.*




Xocalı faciəsinin dünyaya çatdırılması məqsədi ilə Hərbi Hava Qüvvələrinin zabitləri polkovnik-leytenant Zal Nəbiyev və baş leytenant Ülvi Məmmədli, Azərbaycan Alpinizm Federasiyasının təcrübəli alpinistləri Rüfət Qocayev, Nemət Ağayevlə birlikdə fevralın 15-dən martın 1-dək Türkiyə Cümhuriyyətinin ərazisindəki Ağrı dağında ekspedisiyada olacaqlar. Zabitlərimiz Ağrı rayonunun Doğu Bəyazid qəsəbəsinədək nəqliyyatla gedəcəklər. Sonra isə klassik marşrutla piyada Ağrı dağının 5157 metrlik zirvəsinə qalxacaqlar. Onlar zirvəyə Azərbaycan və Türkiyə bayraqları ilə bərabər, Xocalı faciəsi zamanı ermənilərin vəhşicəsinə öldürdükləri qocaların, uşaqların laminasiya edilmiş şəkillərini qoyacaqlar.

Zabitlərlə söhbət əsnasında öyrəndik ki, bu, onların ilk səfərləri deyil. İndiyə qədər hərbçilərimiz bir neçə dəfə alpinizm ekspedisiyalarında iştirak ediblər. Şərqi Qafqazın ən yüksək zirvəsi olan Kazbekə (5054 metr), Uşba zirvəsinə (4751 metr) ekspedisiyalar təşkil ediblər. Bundan başqa alpinistlərimiz Qafqaz sıra dağları yerləşən Qızılqaya və Heydər Əliyev zirvələrini (3726, 3751 metr) fəth edərək qarşıya qoyulan tapşırıqları yerinə yetirərək ekspedisiyalarını uğurla başa vurublar.

Ordumuzun bacarıqlı və peşəkar zabitləri yenə də səfərdədirlər. Səfər proqramına uyğun olaraq onlar fevralın 15-də Xocalı faciəsini dünyaya tanıtmaq istəyi ilə yola çıxıblar. Ekspedisiya üzvləri yola düşməzdən əvvəl Xətai rayonun ərazisindəki Xocalı faciəsində şəhid olanların xatirəsinə ucaldılmış abidəni ziyarət ediblər, onun önünə əklil və gül dəstələri qoyublar.

Xocalı faciəsini dünyaya çatdırmaq istəyi ilə səfərə çıxan zabitlərlə görüşüb söhbət etdik. Polkovnik-leytenant Zal Nəbiyev ürək ağrısı ilə dedi ki, Xocalı hamımızın dərdi və sağalmayan yarasıdı. "Erməni qəsbkarları 1992-ci ildə Xocalıya hücum edərək heç kimə aman vermədən qocaları, uşaqları, qadınları güllələdilər. Təəssüflər olsun ki, dünya bu faciəni, axıdılan qanları görmək istəmir. Biz Xocalı faciəsinin həqiqətlərini, Xocalı fəryadını, Xocalıda tökülən qanları dünyaya çatdırmaq istəyi ilə ekspedisiyaya çıxırıq. İnanırıq ki, məqsədimizə nail olacaq, Xocalı fəryadını dünyaya çatdıracağıq. Xocalıda soydaşlarımızın tökülən qanı yerdə qalmayacaq. Ədalətsizliyə, haqsızlığa son qoyulacaq. Düşməndən şəhidlərin intiqamı alınmayınca, Xocalı adlı yaramız sağalmayacaq. Erməni qəsbkarları törətdikəri bu qanlı faciəyə görə tarix qarşısında mütləq cavab verəcəklər."

Baş leytenant Ülvi Məmmədli dedi ki, fiziki hazırlığımız yüksək səviyyədədir. "Mən sürətli dırmanma üzrə dünya çempionuyam. Əminlik hissi ilə deyə bilərəm ki, biz Xocalı harayını, Xocalı fəryadını dünyaya çatdıracağıq."

Ordumuzun fiziki cəhətdən yüksək hazırlıqlı olan zabitlərinə ekspedisiyalarında, Xocalıya ədalət axtarışında uğurlar arzuladıq. Əmin olduq ki, onlar Xocalı harayının, Xocalı fəryadının dünyaya çatdırılması üçün qarşılarına qoyulan tapşırıqları yüksək səviyyədə yerinə yetirəcək və sağ-salamat geri dönəcəklər.

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

*Bu gün sabahların tarixidi. Sabah tarix olacaq bu həlim qış səhərinin mahiyyətində yaşanılan, yaşanıla-yaşanıla yaşadılan ovqat Vətənə sevgidi. Bu sevgi yüzləri eyni məkanda, eyni zamanda, eyni çılğınlıqla, eyni kövrəkliklə, eyni qürurla əhatəsində saxlamaq qüdrətindədi.*

*Ovqat*

# Cıdır düzündən çiçəklər dərəcəyik

Məkan "N" hərbi hissəsinin nəzarət-buraxılış məntəqəsinin qarşısıdı. Qələbəlik gənc əsgərlərin Hərbi andiçmə mərasiminə görədi. Toplaşanların narahatlığı sezilən narahatlıqdı. Bu narahatlıq dan yeri söküləli bir anın həsrətidi. Bu narahatlıq oğlunu hərbi mundirdə görmək, könül dolusu qürurlanmaq istəyidi. Oğlunu hərbi mundirlilər arasında tanıyıb da sevinməyə təşnəlikdi.

Bu həlim qış səhəri dan yeri söküləndən bəri ağacların budağından üzülməmiş yarpaqları ahəstəcə titrəməkdədi. Dar macalda mənə elə gəlir ki, bir azdan Hərbi and içəcək gənc əsgərlərin analarının ürəyi də beləcə titrəyir. Duyulsa da belədi, duyulmasa da. Bir azdan - tədbirin rəsmi hissəsi, gənc əsgərlərin Hərbi andiçməsi, rəsmi keçid başa çatandan sonra "Boyuna qurban olum!" kəlmələri bu kövrək titrəyişi yumşaldacaq, qoşa qollar əsgər oğulun kürəyində çarpazlaşacaq. Bir anlığa nə əsgər oğul dinəcək, nə də əsgər oğulun anası...



...Rəsmi hissədən sonra əsgər babasının əsgər nəvəsinə dedikləri çəkdi diqqətimi: "Mən sovet ordusunda xidmət etmişəm, atan öz ordumuzda. Nə mənim, nə də atanın xidmət şəraiti sizin xidmət şəraitinizlə müqayisə oluna bilməz. İstər yataqxananız, istər yeməyinizin çeşidləri, keyfiyyəti, istərsə də digər amillər. Siz qüdrətli bir orduda xidmət edirsiniz. Atanın təcili işi olduğuna görə gələ bilmədi. "Açıq qapı" günündə gələcək. Mən əminəm ki, sən bizə başucalığı gətirəcəksən, ay oğul."

Əsgər nəvə babasının köksünə sığınmışdı. Bu əvəzsiz sevgini müşahidə etmək də yaşamaq qədər gözəliydi...

12-13 yaşlı yeniyetmənin əsgər qardaşına davamlı sualları digərləri kimi mənim də diqqətimi çəkdi:

- Hərbi xidmətin çətinliyi varmı? Öhdəsindən gələ bilirsənmi? Avtomat atmağı öyrənibsənmi? Düzgün atmağı, dəqiq nişan almağı bacarırsanmı? Postlara nə vaxt çıxacaqsan?

Bu suallar adi suallar kimi dinlənilmədi. Bu sualları zaman anlamında sabahın əsgəri verirdi. Onun hərbi xidmətdə nələr edəcəyini indidən bilməsi də könüləyatımlıydı...

Yeniyetmələrin Hərbi andiçmə mərasimində iştirakı da müəyyən qədər hərbi xidmətə hazırlıqdı - yeniyetmələrin dünyagörüşü zamanı qabaqlayır. Əsgərin qardaşının suallarına cavabı baxışını bürüyən doğma, mehrli təbəssüm oldu - yeniyetmə cavabdan razı qalmışdı.

"Ağ atlı oğlan" bədii filmində Muradı xatırladım, sağa baxdım, sola baxdım, buludsuz göy üzünə baxdım, özümün şahidliyimlə özümə pıçıldadım: yeniyetmələrimiz yeniyetmə yaşından əsgərləşir, Ana Torpaq! Elə istərdim ki, bu pıçıltını şəhidlərimizin narahat ruhları da eşitsin...

Bir qədər əvvəl Hərbi andiçmə tədbirində əsgər atası Kərim Qasımov demişdi:

- Son illərdə həyata keçirilən irimiqyaslı islahatlar ordunun şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığının səviyyəsini yüksəltdi, 2016-cı ilin Aprel döyüşlərində zəfər qazandı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır" kəlamını hər bir əsgər atası kimi mən də qürurla yaşayıram. Oğlum bu gün Vətənə sədaqət andı içdi. Oğlum əsgər adıyla, mən əsgər atası adıyla qürur duyuruq.

Bir qədər sonra qarşı-qarşıya gələndə bir az əvvəl tanıdığım və heç zaman unutmayacağım Kərim Qasımova son kəlmələrini xatırlatdım: "Bu kəlmələri eşitdiyimizə görə biz də qürur duyuruq", - dedim.

Yan-yörəmizdəkilər məmnunluqla gülümsündülər, yəni, elədir...

Yaşı 70-i aşan kişi alnını ovuşdurub ağır-ağır dilləndi:

- Biz yaşda kişilər zamanında rus ordusunda xidmət etmişik. Nənələrimiz-babalarımız demişkən, dünyanın o başında. Biz də Hərbi and içmişik. Biz də zabitlərin əmrlərini məsuliyyətlə yerinə yetirmişik. Onda əmr verənlər ayrı millətlərin zabitləriydi. Onda biz Vətən adına sovet hökumətini qoruyurduq. İndi öz dövlətimiz, öz ordumuz var. İndi əmr verənlər öz zabitlərimizdi. İndi nəvələrimiz müstəqil Azərbaycanımızı qoruyur. Bu ordunun əsgəri olmağıyla, əlbəttə ki, hər biri qürurlanır. Belə orduyla bütün məmləkət qürurlanır. Ordumuz Ali Baş Komandanın döyüş əmriylə torpaqlarımızı işğaldan azad edəcək...

Kəlmələr bayaqkı qürurun göyqurşağı oldu...

Bayaqdan bəri gözdolusu nizami yerişlə keçən gənc əsgərlərə baxan ağsaqqalın baxışlarını bürüyən qürrə də, sevinc də, sevgi də hamıya doğma qürrədi, doğma sevincdi, doğma sevgidi. Ağsaqqal illərin o üzündə qalanlarını xatırlayır, o illərin təəssüfünümü yaşayır, hər nədirsə, baxışlarındakı doğmalıq düşüncələrimizə hopur. Ağsaqqalla kəlmələşirik.

- Nəvəmin andiçməsinə gəlmişəm. Gəldim, gördüm. İnsan bəzən xoş ovqatdan da kövrəlir. Cəbrayılda böyümüşəm, Cəbrayılı müdafiə edənlərin sırasında olmuşam. Oğlumun cavanlığı bizim sıramızda keçib. Əsgərlərimizə baxıram. Qürurlanıram. Bilirəm və əminəm ki, onlar Ali Baş Komandanın döyüş əmriylə torpaqlarımızı işğaldan azad edəcəklər. Mən də yaşımın bu çağında dədə yurduma üz sürtəcəm, o günün sevincini ömrümə əsgər xeyir-duası biləcəm...

Bir qədər aralıda iki əsgərlə üç atanın əhatəsində söhbət edən ağsaqqalı kişini tanıdım. Səmədiydi, 1993-cü ilin payızında Zəngilanda tanış olmuşduq. O vaxtlar giziriydi. Qoşa qollarımız bir-birimizin kürəyində çarpazlaşdı. Rəhmətlik Yusif belə görüşlərə qardaş görüşü deyirdi...

- Nəvəm Hərbi and içdi, qardaş, - Səməd əllərini ovxalayıb 27 il əvvəl tanıdığım çılğınlıqla dedi. Son kəlməsi bitər-bitməz qaşları çatıldı:

- Vətən - Vətəndi. Vətən torpağının doğması-ögeyi olmur. Azərbaycanın hər qarışı mənə doğmadı. Ancaq Zəngilan... Zəngilan ruhumdu. Göz açıb Zəngilanı görmüşəm. Boya-başa çatınca Zəngilanın timsalında Azərbaycanımızı sevmişəm. Son nəfəsimi Zəngilana təslim etməsəm, gorum od tutub yanar...

Bu, ötəri kövrəklik olacaqmış. Bu kövrəklik əsgərləri görüncə sovuşdu. Qüruruna dədə boyu verməyən sevincini qazilər kimi yaşaması məni illərin o üzünə apardı. Şüküratazda kəlmələşdiyimiz anları xatırladıq. Bundan o yana nə xatırladıqsa, sükutla, səssiz, kəlməsiz xatırladıq. Bir də bir əhdimizi xatırladıq: İsa bulağından 7 qurtum su içək, Ərgünəşdə 7 ocaq qalayaq, Cıdır düzündə 7 qucaqlıq yerdən 7 dəstə çiçək dərək. "Bu əhdimizi Ali Baş Komandanın döyüş əmriylə bu əsgərlər gerçəkləşdirəcək, mənim nəvəm də onların sırasında", - Səməd belə dedi. Baxışı baxışıma, baxışım baxışına sarıldı. Belə doğmalığı həmişə arzulamışam...

...Əsgər anasına baxır, ana əsgər oğluna. İkisinin də baxışında 20-30 günün ayrılığının kövrəkliyi var. Əsgərin baxışlarından "Narahat olma, anam. Arzuladığınız kimi xidmət edəcəm. Babamın da, atamın da döyüş yolunu davam etdirəcəm. Kəndimizə qələbəylə qayıdacam", - oxunurdu, ananın baxışlarından "Bir anan mənəm, biri Vətəndi, ay oğul. Bu gün and içdiniz. Andınıza sədaqətli olacağınıza yerə-göyə inandığım qədər inanıram...", - oxunurdu. Görənlərin, duyanların könlü tellənirdi. Buludsuz göy üzü Hərbi and içmiş əsgərləri salamlayırdı. Səmədə baxdım. O da mən baxan səmtə baxırmış. O da əminiydi ki, mən də əminiydim ki, yaxın vaxtlarda İsa bulağından 7 qurtum su içəcəyik, Ərgünəşdə 7 ocaq qalayacağıq, Cıdır düzündə 7 qucaqlıq torpaqdan 7 dəstə çiçək dərəcəyik...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Ermənistan ordusunda kriminal hadisələr

Ermənistan KİV-də yayılan xəbərə görə fevralın 9-u saat 07:00 Xankəndidə naməlum şəraitdə ölən erməni əsgəri Valeri Nelsonoviç Petrosyanın hansı şəraitdə həlak olmasının bəzi təfərrüatları məlum olub.

Belə ki, işğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən hava hücumundan müdafiə bölməsində xidmət edən, 2019-cu ilin ikinci yarısında hərbi xidmətə çağırılmış, 2001-ci il təvəllüdlü V.Petrosyan alay qərargahının qarşısında yerə yıxılaraq qəfil ölüb.

Araşdırmalar nəticəsində məlum olub ki, əsgər alayın tibb məntəqəsinə yüksək temperaturun olması ilə bağlı müraciət etmiş, lakin həkim tibb məntəqəsində yer olmadığını bildirərək xəstəni qəbul etməyib və onu öz bölməsinə göndərib. Faktla bağlı araşdırma aparıldığı bildirilir.

Hadisəni ört-basdır etmək məqsədilə, hələlik, Ermənistan Müdafiə Nazirliyi tərəfindən rəsmi açıqlama verilməyib.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində baş verən nizamnamədənkənar davranış nəticəsində daha bir əsgər özünə qəsd edib.

Fevralın 12-də işğalçı ordunun Xocavənd yaşayış məntəqəmizdə yerləşdirilən bölmələrindən birinin əsgəri, 2019-cu ildə hərbi xidmətə çağırılan Tiqran Mxoyan ona təhkim edilən silahla özünə qəsd edib.

Xidmət yoldaşları tərəfindən təhqirlərə dözməyən T.Mxoyan başından atəş açaraq intihar edib.

Hələlik, hadisə ilə bağlı rəsmi məlumat verilməsə də, faktla bağlı araşdırma aparılır.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində dözülməz şərait, nizamnamədənkənar münasibətlər, təminatın zəifliyi, fiziki və mənəvi təhqirlər səbəbindən baş verən fərarilik hallarının ardı-arası kəsilmir.

İşğalçı ordunun Xocavənd yaşayış məntəqəmizdə (Hadrut) yerləşdirilən bölmələrindən birinin əsgəri Artem Melkomyan xidmət yerindən qaçıb. Fakt hərbi polisin əməkdaşı T.Avanesyan təsdiq edib.

Ermənistan ordusunun fərarilik edən əsgərinin axtarılması, geri qaytarılması ilə bağlı tədbirlər görülür və hadisənin səbəbləri araşdırılır.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin hərbi hissələrində mövcud olan acınacaqlı vəziyyət, tibb xidmətinin yarıtmazlığı və tibbi ləvazimatların qıtlığı səbəbindən şəxsi heyət arasında mövsümi xəstəliklər baş alıb gedir. Bu vəziyyətdə əsgər ailələrini ən çox incidən həkimlərin səhlənkarlığı, komandirlərin laqeydliyi ilə yanaşı, bir çox hallarda dərman preparatlarını valideynlərin özlərinin almasıdır.

Hərbi xidmətə yeni çağırılanlar arasında soyuqdəymə, boğazağrısı və hərarətin yüksək olması səbəbindən xeyli sayda şəxsi heyət hərbi tibb məntəqələrinə göndərilib. Vəziyyəti xüsusi ağır olan iki hərbi qulluqçu Narek Sarkisyan və Artur Harutunyan təcili olaraq hərbi hospitala təxliyə olunublar. Hərbi qulluqçular N.Sarkisyan və A.Harutunyanın valideynləri dərman preparatlarını tədarük görərək övladlarının yanına gediblər.

İnsident ictimaiyyətdən gizlədilsə də, hərbi hissələrdə həkimlər briqadalarına profilaktik tədbirlər görülməsi barədə əmr göndərilib. Profilaktik tədbirlərin keyfiyyətsizliyinə səbəb isə, yenə də tibbi təminatın zəifliyidir.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

## Yaxşı ki

Çəni tapan gündən kəsilib ağrım,
Könlümü göynədən bir intizarmış.
Mən elə bilirdim buza dönmüşəm,
Sən demə, sinəmdə tonqal yanarmış.

Günləri aylara zorla düyərdim,
Ömrün çiçək fəsli keçdi deyərdim,
Qurumuşdum, ülfətindən göyərdim,
Xoş gün görən kimi ürək baharmış.

Arxanca dünyanı gəzərdi Məmməd,
Yandı hicranına, közərdi Məmməd,
Pislərin əlindən bezərdi Məmməd,
Yaxşı ki, dünyada yaxşılar varmış.

## Əs, bahar nəfəslim

Sən mənə ömürsən, sən mənə bahar,
Sən elə bilmə ki, sən sənsən elə.
Çəmənin çiçəyi nəyimə gərək,
Mənə bənövşəsən, süsənsən elə.

Bir zərif qönçədən dodağın zərif,
Yanağında qoşa ulduz közərib,
Yanında laləyə söylədim tərif,
O vaxtdan inciyib küsənsən elə.

Tələs, harayıma çatmağa tələs,
Tez çatsan, qəm mənə girişə bilməz,
Əs, bahar nəfəslim, ürəyimə əs,
Haçandı bir əsim əsənsən elə.

## Kaş ki

Kaş ki bu xəyala o vaxt düşəydin,
Ömrümün bəxtəvər çağıydı onda.
Uğruma qəmlərdən qabaq düşəydin,
Gözlərin ömrümə yağıydı onda.

Yönü belə qəmədimi bu dağlar?
Qəmə batma demədimi bu dağlar?
Sənsiz qalan ümidimi bu dağlar,
Udub da üstümə şaxıdı onda.

O vaxtlar qəlbimə bir ay doğardı,
Üstümə nur yağar, ümid yağardı,
Darılmaz səbrimə dərya sığardı,
Ləşkər arzularım sağıydı onda.

Gözündə güləsi bir səhər idim,
Mən necə nurluydum, nə təhər idim,
Hələ yazılmamış bir dəftər idim,
Şehli gümanlarım ağıydı onda.

Arxanca çırpınıb sındı qanadım,
Polad sərtliyindən düşdü inadım,
Dünənimlə bu günümü qınadım,
Ürəyim dözümdə dağıydı onda.

## Sən demə

Sən elə gözəlsən, elə göyçəksən,
Görüb gül üzünü, gül dandı könlüm.
Çiçək sözlərini yağdır üstümə,
Çiçəkli sözünə güldandı könlüm.

İntizar çəkməkdən min dağım çökdü,
Yolunmuş çəmənim ləçək-ləçəkdi,
Bu qədər ağrını-acını çəkdi,
Yenə xəyalınla balландı könlüm.

Köhlən bildiyimiz, demə, yedəkmiş,
O şirin şərbətin bircə qədəhmiş…
Sözün də çiçəktək ömrü gödəkmiş,
Çiçək sözlərinə aldandı könlüm.

## Dərddaşım dağlar

Sizsiz yaşamağım - zindan əzabı;
Əgər yaşadığım yaşamaqdısa...
Fələklə könlümün qəmxarlığı var,
Göylərin gözündən yaşım axdısa.

Çiçək açmalıydı daşda diləyim;
Çiynimə qonmamış uçdu mələyim.
Hansı mərtəbədən, məqamdan deyim,
Təmələ hördüyüm daşım axdısa...

Mənimlə danışdı dağın hər daşı;
Sirr tutan dağların Məmməd - sirdaşı.
Bir kömək ummadan dərdini daşı,
Məqsədin dağ yükü daşımaqdısa.

## Könlüm şeir istəyir

# Yaxşı ki, dünyada yaxşılar varmış

*Bu gözəl fikir şair Məmməd Aslanın misrasıdı. Fəlsəfi mahiyyətiylə düşüncələrə hopan bu deyim, müəyyən mənada, kəlam qüdrətindədi. Məmməd Aslanın şeirlərində obraz var. Bu obraz bəşərin obrazıdı, düşünən, düşündürən, sevən, sevilən təbiəti ömrünə köçürüb düşüncələriylə təbiətə köçən insanın obrazıdı.*

*Məmməd Aslanın "Ərzurumun gədiyinə varanda" kitabı istər bədii, istərsə də tarixi əsər kimi oxundu, indi də oxunur.*

*Gözəl şeir gözəl bədii fikirlərlə təqdim edilən şeirdi. Məmməd Aslanın şeirlərinin böyük əksəriyyəti belə oxunur...*

**"Azərbaycan Ordusu"**

## Qoşa yaransaydıq

Biz qoşa yaransaq nə olarmış ki?
Dünya bundan şirin olardı onda.
Gəzib dolanardıq qanad-qanada,
Göylər daha dərin olardı onda.

Birgə kökləyərdik qoşa simləri,
Birgə sındırardıq zor tilsimləri,
Solub-saralmazdı gül mövsümləri,
Göynəyimiz sərin olardı onda.

"Ol" desən olmazlar olardı həmən,
Çiçək qədəmini öpərdi çəmən,
Göylərin damında ulu mərtəbən,
Bəbəyimdə yerin olardı onda.

## Kənardan baxana döyüş asan gələr

Gənclik dəstə-dəstə şeirə gəlməz;
Toplaşıb əkinə-biçinə gələr.
İşindən-gücündən baş çıxardası -
Qandığı bir toplum içinə gələr.

Allah verməyibsə, bəndə də verməz;
İstər arxada ol, öndə də... verməz!..
Yaxında, uzaqda, gendə də verməz!..
Şair ancaq ilham gücünə gələr!

Şeir şairlərin xəyal ölkəsi!
Bir dodaqdan qopan bir soyun səsi!
Şeir şeirdirsə, qızıl külçəsi! -
Yığışıb ərənlər köçünə gələr!

Təklikdən dikələr ən böyük hünər!
Şair təkbaşına artar, güvənər!..
Dalğa-dalğa gələn, sahildən dönər;
Təmkinsiz söz kimin vecinə gələr?!

Kağız arxac deyil! Söz qalaq-qalaq...
İtirir yönünü daha yol-yolaq.
Nə yazırsa-yazsın, hər şeydən qabaq;
Şairlik qələmin ucuna gələr!..

Haqqı bəsirətlə nəzm etməyənlər;
Aşılası dağı əzm etməyənlər;
Sözü gərəyincə həzm etməyənlər
Görərsən: çeçinə-çeçinə gələr...

Şairlik ibrətdir, sözün hasili!
İbrət kəlamları göydən asılı!
Şairlik bir uca Ruhun Rəsulu!
Bir sirli aləmin tacına gələr!

## Mənim

Əlvan gül dənizi, çiçək dənizi,
Ətirli dalğalar dizimdən mənim.
Getməz bu yerlərin göyçək dənizi,
Ürəyimdən mənim, gözümdən mənim.

Yamacı çağırdım, dağı səslədim,
Cavab gələr deyə ümid bəslədim.
Bir coşub-çağlayan nəğmə istədim:
Kəkliklər çıxmadı sözümdən mənim.

Yönəldim bulağa bir qurtum içim,
Yamac fərşə döndü, gül əlçim-əlçim.
Mən necə tapdayım, mən necə keçim,
Min naxış pozular izimdən mənim.

Qurşağı çəmənə sancılıb göyün,
Çiçəklər nazəndə, quşlar ərköyün.
Ürəyim yaylaqda itibdi bu gün,
Xəbərim olmayıb özümdən mənim.

## Niyə itirdin məni

Bir dəli rüzgara kökləndi könlüm,
Bilmirəm aparır, bu, hara məni.
Ay axşam ömrümün səhər günəşi,
Qaytar payızımdan bahara məni.

Yenə gözlərindən irağa düşdüm,
Bir yanar səhratək qurağa düşdüm,
İtirdim özümü, sorağa düşdüm,
Gətirdi həsrətin zinhara məni.

Ətək sən olardın, əl mən olardım,
Yanaq sən olardın, tel mən olardım,
Dilində ən şirin kəlmən olardım,
Sən hara itirdin, sən hara məni.

Məmməd xəyalınla min il qızınmış,
İnsanın ömründən eşqi uzunmuş,
Ürəyim arxanca körpə quzunmuş,
Gah itir gözündən, gah ara məni.

## Qayadan qumacan

Dağın ayağından asılar daşlar;
Belə mənzil kəsər daş ağır-ağır...
Tükənmək bilməz ki, çılğın savaşlar;
Daşlaşmış canlardan kövrəklik yağır.

Soyumun daşını döşümə döydüm,
Döyə bilmədimsə, kimə nə borcu?!
Qayaya kök atıb, daşda böyüdüm;
Daş daşla qovuşsa, daş qala bürcü!

Çiyninə baş əysək bir-birimizin;
O daş yastıq olar, baş yarmaz daha!
Boğmaz işığını gecə gündüzün;
Sağ-salamat çıxar axşam sabaha!..

Bir soy ki bir daşa baş qoysa əgər,
O daş millət üçün səcdəgah olar!
Kök özünü sevsə, Haqq onu sevər!
Bir soyun ayarı tam agah olar.

Qaya sədası var başın yasında:
Baş, daşın üstündə heykələ dönər!
Orxon-Yeniseyin daş-qayasında,
Hələ Türklüyümün nəbzi döyünər.

## Rübailər

Düşünmə: səninlə ta bitdi dünya;
İnsansız xaraba tabutdu dünya.
Cındırlı pir gördüm yol kənarında;
Qoynu-qoltuğuyla yaqutdu dünya!

Bu dağların o üzündən yaz gəlməz;
O yaza qoşulub ötkəm saz gəlməz.
Nə vaxtadək ərş üzündən baxacaq?!
Laçınqaya çimçəşməsə, səs gəlməz!...

# İdman

## Rafael Ağayev Karate 1 Premyer Liqa turnirinin qızıl medalını qazanıb



Azərbaycan karateçisi Rafael Ağayev (75 kq) Dubayda Karate 1 Premyer Liqa turnirində uğurla çıxış edib.

Karateçimiz turnirdə birinci yer uğrunda Luici Busa (İtaliya) ilə döyüşünü qalib başa vuraraq qızıl medal qazanıb.

Qeyd edək ki, bundan əvvəl digər karateçimiz İrina Zaretska (68 kq) bürünc medal əldə edib. Dubayda Karate 1 Premyer Liqa turniri başa çatıb. Bu nüfuzlu yarışda 85 ölkədən 571 karateçi mübarizə aparıb.

## Savatçılarımız Tbilisidə beynəlxalq turnirdə 10 medal qazanıblar



Tbilisidə gənclər arasında savat (Fransa boksu) üzrə beynəlxalq turnir keçirilib.

Azərbaycan Savat və Şaolin Döyüş Sənətləri Federasiyasından bildiriblər ki, yarışda ölkəmizi təmsil edən Əziz Əzizli (46 kq), Elvin Qurbanov (48 kq), Ömər Rahimov (50 kq), Həsən Həsənzadə (53 kq), Tural Baloğlanov (60 kq), Ümid Rəhimov (63), Kamil Balaşov (70 kq) və Seymur Yusifov (70 kq) bütün rəqiblərini məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Digər iki idmançımız Orxan Rzalı (46 kq) və Nəriman Vəliyev (63 kq) isə finalda uduzaraq gümüş medalla kifayətləniblər.

## Azərbaycan atleti İstanbul kuboku turnirində bürünc medal qazanıb



Fevralın 16-da Azərbaycan atletləri Türkiyədə keçirilən İstanbul kuboku turnirində iştirak ediblər.

Azərbaycan Atletika Federasiyasının baş katibinin müavini Kənan Məhərrəmov bildirib ki, yarışda üç təkanla tullanma yarışında iştirak edən atletimiz Yekaterina Sarıyeva 13,26 metr nəticə göstərərək bürünc medal qazanıb.

Qeyd edək ki, İstanbulda keçirilən Balkan çempionatında atletimiz Y.Sarıyeva 13.50 metr nəticə ilə üçüncü olub. Həmin yarışda Nazim Babayev üç təkanla tullanma növündə 16,92 metr nəticə göstərərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

## Yeniyetmə cüdoçularımız Avropa kuboku turnirində 9 medal qazanıblar



İspaniyanın Fuenxirola şəhərində yeniyetmə cüdoçular arasında keçirilən Avropa kuboku yarışı başa çatıb.

Beynəlxalq turnirin ikinci günündə millimiz hesabına daha üç medal yazdırıb. Belə ki, oğlanların mübarizəsində Nahid İsmayılov (73 kq) bütün rəqiblərini məğlub edərək Avropa kubokunun turnirinin qızıl medalını qazanıb. Komandamızın digər üzvü Əlirza Şıxəlizadə (81 kq) yalnız final görüşündə uduzaraq gümüş medala sahib olub. Qızların yarışında isə Aytac Qardaşxanlı (57 kq) bürünc medala layiq görülüb.

Azərbaycan cüdoçuları turnirdə, ümumilikdə 2 qızıl, 4 gümüş və 3 bürünc medala sahib olublar. Millimiz oğlanlar arasında medalların əyarına görə 1-ci yeri, ümumu komanda hesabında 2-ci yeri tutub.

**AZƏRTAC-ın materialları əsasında**

Gizir Sofuyev Cəlal Aydın oğluna verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Vahid MƏHƏRRƏMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 76
Nüsxə 3900